Günəş Şərqdən doğur!
№ 158 (5439), 2021-ci il
Qiyməti 40 qəpik
# ŞƏRQ
Müstəqil İctimai-siyasi qəzet
www.sherg.az
3 sentyabr 2021-ci il (cümə)



## Azərbaycan və Türkiyə hərbçiləri Bakıda birgə təlim-məşqlərə başlayıb

(səh.8)



## Bakı İrəvana sərt xəbərdarlıq etdi

"Ərazilərimizdə aqressiv separatçı meylləri qızışdırmaq cəhdləri qətiyyətlə alınacaq"

"Ermənistan Baş naziri və bu ölkənin Xarici İşlər Nazirliyinin 2 sentyabr 2021-ci il tarixində Azərbaycanın Qarabağ bölgəsində separatçılığın təşviq olunmasına xidmət edən bəyanatlarını qətiyyətlə pisləyirik".

(səh.2)

## "Türk ocağı" Əhməd bəy Ağaoğlunun evini yenidən qurmağa hazırdır"



Akif Aşırlı: "Prezident İlham Əliyevə bu məsələ çatdırılsa, hökmən müsbət nəticə olacağına inanıram"

(səh.3)

# İngiltərə Qarabağa yardım ayırdı

## Böyük Britaniya Azərbaycanın haqlı davasına dəstək verən ölkələr sırasındadır



(səh.6)

# Ermənilər Zəngəzuru sürətlə boşaldırlar

## Məğlub və kasıb Ermənistanda normal yaşamaq mümkün deyil



(səh.8)

### Rusiya "Altılıq" platformasını dəstəkləyir

Zaxarova: Moskva Yerevanın Bakı və Ankara ilə münasibətlərinin normallaşmasına tərəfdardır

(səh.2)

### Hələlik yeni məlumat yoxdur

Ali təhsil müəssisələrinin tədrisə distant formada başlayacağı dəqiq deyil

(səh.4)

### Ölənlərin sayı artdı

Azərbaycanda daha 3 759 nəfər koronavirusa yoluxub

(səh.5)

### "Marketdən çörək almağa pulum yoxdur"

Şahbaz Quliyev: "Yardım üçün gəlirlər, şəkil çəkdirib qayıdırlar"

(səh.7)

# Bakı İrəvana sərt xəbərdarlıq etdi

## “Ərazilərimizdə aqressiv separatçı meylləri qızışdırmaq cəhdləri qətiyyətlə alınacaq”



**”Ermənistan Baş naziri və bu ölkənin Xarici İşlər Nazirliyinin 2 sentyabr 2021-ci il tarixində Azərbaycanın Qarabağ bölgəsində separatçılığın təşviq olunmasına xidmət edən bəyanatlarını qətiyyətlə pisləyirik”.**

”Şərq” xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin yaydığı məlumatda deyilir.

Bildirilib ki, Azərbaycanın tarixi və beynəlxalq hüquqi çərçivədə mövcud olan ərazilərinə qarşı əsassız iddialarından, tarixin saxtalaşdırılmasından əl çəkməyən, beynəlxalq hüquq prinsiplərini kobudcasına pozan, yürütdüyü təcavüz siyasət səbəbindən düşdüyü acınacaqlı vəziyyətdən nəticə çıxarmayan bir ölkənin heç bir çərçivəyə sığmayan bu davranışı yalnız xəstə təxəyyülün nəticəsidir: ”Ermənistan rəsmiləri istədikləri qədər tarixi faktları və hüququ yanlış təqdim etməyə çalışa bilərlər, lakin bu, həqiqətləri dəyişməyəcək. Qarabağ Azərbaycanın tarixi ərazisidir, beynəlxalq tanınmış ərazilərinin ayrılmaz tərkib hissəsidir.

Ermənistan hələ 1980-ci illərin sonlarından başlayaraq Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinə açıq iddialar irəli sürüb və təcavüzkar separatçılığı dəstəkləyib. Məlumdur ki, Azərbaycanın icazəsi olmadan Dağlıq Qarabağın birtərəfli qaydada ayrılması sovet qanunlarına zidd idi və bu, hələ o zaman ali konstitusiya səviyyəsində təsdiqlənmişdi.

Öz müqəddəratını müəyyən etmək hüququna istinad edən Ermənistan rəsmiləri, 1991-ci ilin 10 dekabrında Qarabağda separatçıların keçirdiyi ”müstəqillik referendumunun” muxtar vilayətin hüquqi baxımdan tərkib hissəsini təşkil etdiyi Azərbaycanın razılığı olmadan və bu bölgənin azərbaycanlı əhalisinin iştirakı olmadan keçirildiyini söyləmirlər.

Azərbaycanın Qarabağ bölgəsinin Ermənistan silahlı qüvvələri tərəfindən 30 ilə yaxın hərbi işğal altında saxlanıldığı, bir milyonadək azərbaycanlının fundamental hüquqlarının pozulduğu faktının üzərindən də erməni rəsmiləri susqunluqla keçirlər.

Bu və digər faktları, Ermənistanın əsassız və destruktiv mövqeyini, beynəlxalq təşkilatların qərarlarını uzun illər ərzində dəfələrlə rəsmi bəyanatlarımızda səsləndirdik. Onilliklər ərzində münaqişəni danışıqlar yolu ilə həll etmək üçün strateji səbir nümayiş etdirdik. Təcavüz siyasətindən əl çəkməyən Ermənistanın növbəti hərbi təxribatına cavab olaraq başlanılan 44 günlük Vətən müharibəsi nəticəsində beynəlxalq ədaləti və Azərbaycanın ərazi bütövlüyünü bərpa etdik. Bundan sonra Azərbaycan ərazilərinə qarşı hər hansı iddialarla çıxış etmək və ərazilərimizdə aqressiv separatçı meylləri qızışdırmaq cəhdləri tərəfimizdən qətiyyətlə alınacaq və lazımı şəkildə cavablandırılacaqdır.

Bölgədə yaranmış yeni reallıqlar fonunda Ermənistanın sərgilədiyi destruktiv davranışın nəinki heç bir perspektivi yoxdur, əksinə bu mövqe Ermənistanı səfalətə sürükləyir”.



# Prezident fərman imzalayıb

## Dövlət orqanlarında daxili idarəetmə proseslərinin elektronlaşdırılması ilə bağlı sənədə dəyişiklik edilib

**Prezident İlham Əliyev ”Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması tədbirləri haqqında” fərmanında dəyişiklik edilməsi barədə fərman imzalayıb.**

Fərmanın 8.1-ci bənd ləğv edilib.

Sənədə əsasən, bu fərmanın 5-ci və 6-cı hissələrinə əsasən yaradılan daxili idarəetmə proseslərinin elektron sistemlərinin istifadəçiləri üçün elektron imza və Data Mərkəzindən istifadə ilə bağlı tarifləri Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq edilməlidir

Nazirlər Kabinetinə ”Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması tədbirləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 oktyabr tarixli 314 nömrəli Fərmanının 10.3-2-ci bəndində nəzərdə tutulmuş tapşırığın icrasını iki ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təmin etmək tapşırılıb.



# Füzuli hava limanı möhtəşəm nailiyyətdir

## Brayza: “Azərbaycan infrastruktur layihələrinin tikintisinə maliyyə resursları cəlb etməkdə qətiyyətlidir”

**”Yaxın zamanda Füzulidə beynəlxalq hava limanının açılması məsələsi Azərbaycanın bütün regionun ehtiyac duyduğu vacib infrastruktur layihələrinin tikintisinə böyük həcmdə maliyyə cəlb etməkdə nə dərəcədə qətiyyətli və effektiv ola biləcəyini göstərir”.**

Bunu ”Report”a ABŞ-ın Atlantik Şurasının böyük elmi işçisi, beynəlxalq ekspert Metyu Brayza bildirib.

Onun sözlərinə görə, Füzuli hava limanının artıq bu payızda açılma ehtimalının olması faktı möhtəşəm nailiyyətdir.

”Aprel ayında Azərbaycana son səfərim zamanı Ağdamda olarkən yolun, həmçinin dəmir yolunun bərpası işlərinin miqyası məni təsirləndirdi”, - M.Brayza deyib.

O həmçinin əlavə edib ki, qarşıda Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yüzlərlə, minlərlə minanın təmizlənməsi ilə bağlı böyük iş durur: ”Yalnız bundan sonra azərbaycanlı məcburi köçkünlərin doğma torpaqlarına tam qayıdışı təmin ediləbilər”.

# Rusiya "Altılıq" platformasını dəstəkləyir

## Zaxarova: Moskva Yerevanın Bakı və Ankara ilə münasibətlərinin normallaşmasına tərəfdardır

**Moskva bundan sonra da Ankara və Yerevan arasında münasibətlərin normallaşdırılmasına yardım etməyə hazırdır. Bunu cümə axşamı keçirilən ənənəvi brifinq zamanı Rusiya XİN rəsmisi Mariya Zaxarova deyib.**

”Bizim tərəfimizdən Yerevan və Ankara arasında bir müddət əvvəl müsbət siqnalların mübadiləsi qeydə alınıb, yəni biz bunu görmüşük və nəzərə almışıq. İki qonşu dövlətin qarşılıqlı hörmət və bir-birinin maraqlarının nəzərə alınması əsasında yaxınlaşmasına indi də yardım etməyə hazırıq”, - deyə o bildirib.

Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasına gəldikdə isə, Zaxarova deyib ki, bu məsələdə Moskvanın diqqət dairəsindədir.




”Altılıq” platforması məsələsinə *(Azərbaycan, Ermənistan, Gürcüstan, Rusiya, İran və Türkiyənin iştirakı ilə regional məşvərət mexanizminin işə salınması ideyası)* toxunan Zaxarova deyib ki, bu platforma onun bütün potensial iştirakçılarının maraqlarına cavab verə, sülhün və etimadın möhkəmləndirilməsinə töhfə verə, Cənubi Qafqazda iqtisadi proseslərin və əməkdaşlığın stimullaşdırılmasına rəvac verə bilərdi.

”Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması Moskvanın diqqət dairəsindədir. Bu məsələ həmçinin Bakı və Yerevanın siyasətinin mərkəzi mövzusudur. Bizim əsas səylərimiz üçtərəfli razılaşmaların həyata keçirilməsinə yönəlib. Prioritetləri arasında Qarabağda humanitar məsələlərin həlli, Ermənistan-Azərbaycan sərhədində gərginliyin aradan qaldırılması yer tutur”, - deyə Zaxarova vurğulayıb.



# "Türk ocağı" Əhməd bəy Ağaoğlunun evini yenidən qurmağa hazırdır"

## Akif Aşırlı: "Prezident İlham Əliyevə bu məsələ çatdırılsa, hökmən müsbət nəticə olacağına inanıram"

Bu günlərdə Şuşada səfərdə olmuş Azərbaycanın Macarıstandakı səfiri, ədəbiyyatşünas, araşdırmaçı Vilayət Quliyev sosial şəbəkədə görkəmli ictimai-siyasi xadim, türkoloq-alim Əhməd bəy Ağaoğlu barəsində status paylaşıb. V.Quliyev vurğulayıb ki, erməni vandalları Əhməd bəy Ağaoğlunun ata mülkünü son daşına qədər dağıdıblar.

Onun sözlərinə görə, sovet dövründə idarə və müəssisə binası, pansionat və məktəb kimi istifadə olunan, yerli camaat arasında nədənsə "Lesnaya şkola" kimi tanınan bu böyük mülkün yerində indi yalnız kolkos bitir: "Ermənilərin Əhməd bəylə xüsusi "haqq-hesabları" vardı. Biz də onu "burjua millətçisi" kimi damğalayanda Ermənistanda neodaşnakizmin ideoloqu Con Kirakosyan öz kitabında "şuşalı pantürkist Əhməd Ağayevi Şuşada erməni qırğınlarının təşkilatçısı və rəhbərlərindən biri" kimi qələmə verirdi. 1914-cü ildə erməni dramaturqu E.Ter-Qriqoryan əsas qəhrəmanının "panislamist" Əhməd bəy Ağayev olduğu "Qılınc və od" pyesini yazmışdı. Bu üzdəniraq əsər tezliklə rus dilinə çevrilərək Moskvada da çap olunmuşdu. Daşnak terrorçularının "Nemezis" qisas planına görə Əhməd bəyin adı "qətli vacib və təxirəsalınmaz şəkildə həyata keçirilməli olan" 43 nəfərin siyahısına salınmışdı. Sadəcə, səhvən onun yerinə Behbud xan Cavanşiri öldürmüşdülər".

Araşdırmaçı qeyd edib ki, 1918-ci ildə ermənilərin təhriki ilə ingilislərin diktəsi altında işləyən Kürd Mustafa Paşa məhkəməsi Əhməd bəyi saxta erməni "soyqırımında" suçlu sayaraq Malta adasına sürgün edib: "Ölümə bərabər bu sürgündən yalnız Qurtuluş Savaşının öndəri Atatürkün sayəsində xilas ola bilmişdi.

Və bizdən fərqli olaraq uydurduqları saxta tarixi heç vaxt unutmayan daşnak törtöküntüləri Şuşanı müvəqqəti işğal edən kimi ilk qisası Əhməd bəydən, onun xatirəsindən almışdılar".

**"Şərq" qəzetinin baş redaktoru, Azərbaycan Türk ocağının sədri Akif Aşırlı da vurğulayıb ki, Əhməd bəy Ağaoğlunun kimliyi barədə vaxtaşırı məlumatlar paylaşılır, barəsində bizdən çox Qərb alimləri, Türkiyə tarixçiləri yazır. Baş redaktor bildirib ki, bu böyük mütəfəkkir Azərbaycan Xalq Cümhuriyyətinin Qarabağdan seçilən millət vəkili olmaqla yanaşı, Osmanlı dövlətinin, Atatürk Türkiyəsinin millət vəkili olub:** "1918-ci ildə Qafqaz İslam Ordusu komandanı Nuru paşanın müşaviri kimi Azərbaycanın ərazi bütünlüyünün təminində həlledici rol oynayıb. Fransada Sarbon Universitetinin hüquq fakültəsini bitirən ilk azərbaycanlıdır. Azərbaycanın bir sıra mətbuat orqanlarını yaradıb, peşəkar jurnalistlərin yetişməsində əməyi müqayisəolunmaz dərəcədə böyükdür. "Həyat", "İrşad", "Tərəqqi", "Kaspi" qəzetlərində türk dünyasının problemlərini əhatə edən yüzlərlə məqaləsi var. İslamda qadın azadlığı problemini ilk dəfə bu böyük mütəfəkkir qələmə alıb. Türkiyədə Atatürk dönəmində dövlət quruluşunun əsas ideoloqlarından biri olan Əhməd bəy indiki anlamda Türkiyənin mətbuat və informasiya naziri olub. İnformasiyası bütün dünyaya yayılan "Anadolu" agentliyini da o yaradıb".

**Akif Aşırlı qeyd edib ki, Türkiyənin dağılmasının qarşısını alan "Türk ocağı" da 1912-ci ildə İstanbulda onun evində təsis edilib:** "İki il öncə Əhməd bəy Ağaoğlunun anadan olmasının 150 illiyi ilə bağlı Prezident sərəncam imzaladı. Amma bir cox təhsil müəssisələri, ali məktəblər bu dahinin adını layiqincə yad etmədi. 1918-ci ildə Əhməd Cavadın, Abdulla Şaiqin və bir çox ziyalılarımızın yaratdıqları Azərbaycan Türk Ocağını bərpa edən bizlər İstanbul Universiteti və Azərbaycan İslam İnstitutu ilə birgə Türkiyədə və Bakıda elmi konfrans keçirdik. Atatürk Mərkəzində hörmətli Vilayət Quliyevin Əhməd bəylə bağlı kitablarının təqdimatını kecirdik. Sözümün canı odur ki, Şuşa azad olunandan sonra Əhməd bəy Ağaoğlunun adının əbədiləşdirilməsi, ata mülkünün yenidən qurulması, əgər bu mümkün olmasa əvvəlki lahiyəsi əsasında tikilməsini təklif etdik. Əhməd bəy Ağaoğlunun evində təsis olunan, mərkəzi Ankarada yerləşən Türk Ocaqları Ümumi Mərkəzi bütün xərcləri, maliyyəni üzərinə götürür. Türkiyədə 90, Avropada 10-a yaxın şöbəsi olan bir qurum bunu etməyə qadirdir. Təklifimiz yenə qüvvədədir. Əgər Azərbaycan Prezidenti İlham Əliyevə bu məsələ çatdırılsa, hökmən müsbət nəticə olacağına inanıram. Əhməd bəy Ağaoğlunun evi muzey və kitabxana kimi fəaliyyət göstərə bilər. Bu, Şuşaya böyük əzəmət verər. Ermənilərin qarşısına Difai ilə cıxan böyük şəxsiyyətin haqqıdır".

**İsmayıl Qocayev**

# Tankçılarımız Moskvada bizi qürurlandırdı

## Komandamız finala yüksələrək, Rusiya, Çin, Qazaxıstan tankçıları ilə yarışacaqlar





### Şair Ramaldanov: "Hərbçilərimizin döyüş qabiliyyəti, peşəkarlığı yüksək səviyyədədir"

**"Beynəlxalq Ordu Oyunları - 2021" yarışları çərçivəsində Rusiya Federasiyasının Moskva şəhərində "Tank biatlonu" müsabiqəsinin yarımfinal mərhələsi keçirilib. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.**

Yarımfinal mərhələsində uğurla çıxış edən komandamız final mərhələsinə yüksəlib. Sentyabrın 4-də keçiriləcək final mərhələsində tankçılarımız Rusiya, Çin və Qazaxıstandan olan tank heyətləri ilə mübarizə aparacaqlar.

Finalda Azərbaycan komandası qırmızı, Rusiya göy, Çin sarı, Qazaxıstan isə yaşıl rəngdə olan tanklarda yarışacaqlar.

**Tankçılarımızın uğuru barədə fikirlərini "Şərq"lə bölüşən ehtiyatda olan polkovnik, hərbi ekspert Şair Ramaldanov söyləyib ki, Azərbaycan hərbçilərinin döyüş hazırlığının proqramı hər zaman yüksək səviyyədə qurulub.**

Polkovnik qeyd edib ki, hərbçilərimiz döyüş qabiliyyəti və profesionallığını daim yüksəltməklə məşğuldur: "Bunun üçün çoxsaylı məşğələlər var. Son illər hərbçilərimiz harada olurlarsa-olsunlar, yüksək nailiyyətlərlə bütün yarışlarda finala çıxırlar. Məsələn, dənizçilərimiz neçə ildir ki, Xəzər dənizində keçirilən hərbi oyunlarda birincilik qazanır. Xüsusi təyinatlı qüvvələrimiz də Vətən savaşından bir il öncə Türkiyədə 28 dövlət arasında 1-ci yer tutmuşdu. Topçularımız, snayperçilərimiz və digər hərbiçilərimiz müxtəlif ölkələrdə keçirilən yarışlarda iştirak edərək finala qədər yüksəliblər".

**Ş.Ramaldanov vurğulayıb ki, Rusiyada keçirilən "Beynəlxalq Ordu Oyunları - 2021" yarışında finala çıxmağımız Azərbaycan üçün ədalətli nəticədir:** "Həqiqətən də ölkəmizdə döyüş hazırlığına olan diqqət yüksəkdir. Dövlət tərəfindən yaradılan şərait, poliqon və hərbi təlim mərkəzlərimizdə müasir avadanlıqların olması, Azərbaycan hərbiçilərinin döyüş potensialını yüksəltmək üçün digər şəraitlər yaradılıb. Hərbiçilərimiz postsovet məkanında təlimlərdən çox keçiblər. Bunun da nəticəsini Moskvada sözügedən yarışlarda gördük".

*Ekspertin fikrincə, qələbəmiz onu göstərdi ki, hərbçilərimizin peşəkarlığı ilə qısa zamanda ərazi bütövlüyümüzü bərpa etməyə qadir olduq:* "Ali Baş Komandan İlham Əliyev hələ aprel döyüşlərindən sonra demişdi ki, Ermənistanla Azərbaycanı təkbətək qoysalar, ordumuz qısa zamanda işğalçı qüvvələri darmadağın edəcək. Cənab Prezident ordu ilə sıx təmasda olan şəxs kimi hərbçilərimizin yüksək peşəkarlığına bələd idi.

Tankçılarımız Moskvada Azərbaycan Ordusunun və hərbi mütəxəssislərin nəyə qadir olduğunu bir daha sübut etdilər və finala çıxdılar. Əlbəttə, finala gedən yol tankçılarımız üçün asan olmayıb. Onlar bu yerə gəlmək üçün gecə-gündüz peşəkarlıqlarını artırırdılar. Nəinki tankçılar, digər ixtisaslı hərbçilərimiz də belə yarışlarda ordumuzun yüksək nailiyyətlər qazanacağını sübut edirlər.

Tankçılarımızın 44 günlük müharibədə düşməni darmadağın edən bir qüvvə olması Rusiyadakı yarışda finala çıxmağımıza xüsusi rəng qatır. Azərbaycan hərbiçiləri bundan sonra da yüksək nəticələrlə seçiləcəklər. Moskvadakı yüksək göstəricilər revanşist ideyalarla yaşayan düşmənə "dəmir yumruğumuzun" nəyə qadir olduğunu göstərir. Qürur hissi isə tankçılarımızı təbrik edir və onlara uğurlar diləyirik".

**Yeganə Bayramova**

# Vətənpərvərlik tərbiyəsini qanunla tənzimləmək mümkün deyil

"Vətənpərvərlik tərbiyəsi haqqında" yeni qanun layihəsi hazırlanır". Bu barədə parlamentin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev deyib. Komitə sədri bildirib ki, bu qanun layihəsi üzərində artıq iş gedir: "Bu, çox önəmli məsələdir. Yeni reallıqları nəzərə alaraq, bu sahədəki fəaliyyətin qanunvericilik bazasını gücləndirmək üçün bu qanun layihəsinin hazırlanması zərurəti də meydana çıxıb". B.Əliyev əlavə edib ki, qanun layihəsinin hazırlanması üçün İşçi Qrupun yaradılması da təklif edilir: "Proses artıq başlayıb. Əlaqədar qurumlarla da işlər aparılır".





## Fazil Mustafanın yeni hazırlanan layihə ilə bağlı tərəddüdləri var

## Seymur Verdizadə: "Qəbir yerini pulla satan məmur hansı üzlə vətənpərvərlik ideyalarını təbliğ edə bilər?"

**Bəhs edilən qanun layihəsi ilə bağlı "Şərq"ə danışan millət vəkili Fazil Mustafa məsələyə fərqli yanaşıb:** "Açığı, mənim üçün vətənpərvərlik tərbiyəsinin qanunla həyata keçirilməsi bir az aydın deyil. Bir qədər fərqli baxışım var. Bəlkə də orada hansısa müddəalar var, amma bizim üçün aydın deyil. Qanun layihəsi ilə tanış olmadığım üçün deyə bilmərəm. Amma prinsipcə, vətənpərvərliyin qanunla tənzimlənməsi mənə qəribə gəlir".

**Jurnalist Araşdırmalar Mərkəzinin rəhbəri, "yenisabah.az" saytının baş redaktoru Seymur Verdizadə "Şərq"ə deyib ki, yeniyetmə və gənclər arasında vətənpərvərlik hisslərini yaymaq çox vacibdir.** Xüsusilə, müharibədən yenicə çıxmış, hər an mənfur düşmənin təcavüzü ilə üzləşmək məcburiyyətində qalan bir ölkə üçün bu olduqca zəruridir: "Hesab edirəm ki, təkcə dövlət qurumları deyil, QHT-lər, mətbuat, bütövlükdə cəmiyyət bu məsələdə səfərbər olmalıdır. Amma mən bu məsələnin qanunla necə tənzimlənəcəyini bilmirəm. Ola bilsin, seçilmiş insanlar olduğuna görə deputatlarımız bunun yolunu bilirlər. Məncə, bu cür məsələlər hüquqi deyil, mənəvi yollarla tənzimlənməlidir. Uşaqlara, yeniyetmə və gənclərə yaxşı nümunə olmaq lazımdır. Yalandan və talandan uzaq durmalı, sadə, ləyaqətli həyat tərzi keçirməliyik. Əxlaqsızlıq, vicdansızlıq edib sonra "vətənpərvərlik çətiri"nin arxasında gizlənmək olmaz. Aydın məsələdir ki, bu iradlar konkret şəxslərə, yaxud deputatlara ünvanlanmayıb. Bütövlükdə cəmiyyətdə qüsurlar var. Vəzifəsi, siyasi statusu olmayan adamlar tanıyıram ki, hər gün övladlarının beynini "El üçün ağlayan göz kor olar" tipli yararsız məsəllərlə doldururlar".

**S.Verdizadə vurğulayıb ki, vətənpərvərlik təkcə erməniyə güllə atmaqdan ibarət deyil:** "44 günlük Vətən müharibəsi sübut etdi ki, bunu bizdən daha yaxşı bacaran oğullarımız var. Onların qanları bahasına bütöv hala gətirdikləri Vətəni rüşvət və korrupsiya ilə murdarlamaq ən böyük tərbiyəsizlikdir. Qəbir yerini pulla satan məmur hansı üzlə vətənpərvərlik ideyalarını təbliğ edə bilər? Biz ancaq öz işimizə vicdanla yanaşmaqla, vicdanla yaşamaqla gənclərə yaxşı nümunə ola və bununla da Vətənə fayda verə bilərik".

**İsmayıl Qocayev**

## Hələlik yeni məlumat yoxdur

### Ali təhsil müəssisələrinin tədrisə distant formada başlayacağı dəqiq deyil




**Sosial şəbəkədə ali təhsil müəssisələrinin yeni tədris ilinə distant formada başlayacağına dair məlumatlar yayılıb. Təhsil Nazirliyindən bildirilib ki, bu barədə hələlik bir məlumat yoxdur.**

Qeyd edək ki, təhsil işçilərinin böyük bir hissəsinin vaksinasiya olunması və ali təhsil müəssisələrində 18 yaşdan yuxarı tələbələrdən COVID pasportunun tələb edilməsi 2021-2022-ci tədris ilində təhsil müəssisələrinin ənənəvi təhsil formasına qayıdacağına dair ehtimalları artırıb. Lakin tədrisin konkret hansı formada aparılacağı ilə bağlı hələlik qərar verilməyib.

## "Qida Təhlükəsizliyi haqqında" yeni qanun layihəsi hazırlanıb



**Azərbaycanda "Qida Təhlükəsizliyi haqqında" yeni qanun layihəsi hazırlanıb.**

Qanun layihəsinin Milli Məclisin payız sessiyasında müzakirəyə çıxarılması nəzərdə tutulur.

Qanun layihəsində Azərbaycana idxal olunan və daxildə istehsal olunan qida məhsullarının keyfiyyətinə nəzarətin gücləndirilməsi məsələləri və bu sahədə yeni qaydaların tətbiqi nəzərdə tutulur.




## Cavab bir həftədən gec çıxır

### Korona testi ilə bağlı şikayətlər səngimir

**Son zamanlar koronavirus testi verən şəxslər arasında şikayətlər çoxalıb. Səbəb isə testin cavabının bir həftəyə, hətta ondan daha gec çıxmasıdır.**

Maraqlıdır ki, bir neçə ay bundan əvvələ qədər 2 günə cavab verilirdisə, indi niyə 1 həftəyə elan edilir? İş-işdən keçəndən sonra hansısa nəticə kimə, nəyə lazımdır?!

**Həkim, ictimai-siyasi xadim Zəlimxan Məmmədli mövcud problemləri "Şərq"ə sadalayıb:**

"Yəqin, bürokratik əngəllər var. Və bu, normal fəaliyyətə imkan vermir. Ya da ola bilsin, müraciətlər çoxdur. İstənilən halda koronavirusla bağlı siyasətimiz bərbad haldadır".

**Kənan**

# Ermənistan sülh çağırışlarına məhəl qoymur

## "Əsas odur ki, beynəlxalq ictimaiyyət Azərbaycanın düzgün siyasət yeritdiyini görür"

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistan xarici işlər nazirinin "RİA" agentliyinə müsahibəsinə münasibət bildirib.**

L.Abdullayeva bildirib ki, Ermənistan Xarici işlər naziri Ararat Mirzoyan Rusiyanın "RİA" xəbər agentliyinə müsahibəsində rəsmi İrəvanın bugünədək sərgilədiyi ənənəvi beynəlxalq hüquqa zidd və Azərbaycana qarşı ərazi iddialarını əks etdirən mövqeyini təkrar edib:

"Erməni xarici işlər naziri Azərbaycanın beynəlxalq sərhədləri çərçivəsindəki ərazilərində aqressiv separatçılığı qızışdırmaqla, bəhs etdiyi "sülh və təhlükəsizlik strategiyasının" saxtakarlıqdan başqa bir şey olmadığını və bu ölkənin hələ də təcavüz siyasətindən əl çəkmədiyini açıq şəkildə göstərir.

Ermənistanın yeni xarici işlər nazirinin diqqətinə çardırırıq ki, Azərbaycan ərazi bütövlüyünü beynəlxalq hüququn tələblərinə uyğun olaraq təmin edib və hazırda tərəflərin imzaladığı bəyanatların icrasının zamanıdır. Bu reallığı dərk etmək Ermənistan tərəfinin maraqlarındadır, çünki ölkə nəhayət yalan və xülyalara son verərək, gələcək inkişaf və tərəqqiyə köklənə bilər.

Ölkəmiz dəfələrlə beynəlxalq hüquq prinsipləri əsasında münasibətləri normallaşdırmaq tərəfdarı olduğunu bəyan edib. Ermənistan tərəfinin revanşist bəyanat və davranışları isə bu ölkənin hələ də beynəlxalq hüquq prinsiplərinə əsaslanan qonşuluq siyasətinə hazır olmadığını nümayiş etdirir".




**Ermənistanın beynəlxalq diplomatiyadan başı çıxmadığını söyləyən politoloq Tofiq Abbasov "Şərq"ə vurğulayıb ki, A.Mirzoyanın açıqlaması da ermənilərin növbəti cahilliyindən irəli gəlir.**

"Həm beynəlxalq diplomatiya leksikonunda, həm də diskusiya mədəniyyətində "no comment" deyilən bir ifadə var. Yəni "şərhə ehtiyac yoxdur". Bu, çox populyar ifadədir. Bəzi hallarda vəziyyət o dərəcədə aydın və dolğun olur ki, dərrakəli insanlar hansısa müdaxiləyə ehtiyac olmadığını dərk edir. Ancaq erməni məfkurəsi obyektiv yanaşma və baxışa məhəl qoymur. Elə məqamlar var ki, bir-iki cümlə deyən kimi bəzi insanlar məsələnin məğzində duran fikri başa düşür. Ermənilər üçün isə belə bir müdrik yanaşma yaddır. Özlərini o dərəcədə natamam tərzdə ifadə edirlər ki, hər məqamı onlara az-az diktə edib çatdırmaq lazım gəlir. Bu baxımdan erməni diplomatiyası sözün həqiqi mənasında naqisdir. Bilirlər ki, Azərbaycan beynəlxalq hüququn tələblərindən kənara çıxmayıb, yenə də özlərini bilməzliyə vururlar".

**T.Abbasov qeyd edib ki, natamam və qəliz düşüncəli erməni diplomatiyasına məhəl qoymalı deyilik:**

"Əsas odur ki, beynəlxalq ictimaiyyət Azərbaycanın düzgün siyasət yeritdiyini, Ermənistana qarşı irəli sürülən iddialarda haqsız olmadığını görür. Digər tərəfdən siyasətimizdə yüksək yanaşmalar sərgiləyərək qonşularımızı da buna çağırırıq. Ermənilər belə siyasət yürüdə bilmirlərsə, deməli problem onların özündədir. Dəfələrlə gördük ki, bir çox erməni qüvvələri Azərbaycanla bağlı qeyri-sağlam və anlaşılmayan siyasət yürüdürlər. Lakin ölkəmiz həqiqətin özünü ifadə edir. Ona görə də bütün tələblər Azərbaycan yox, Ermənistana qarşı irəli sürülməlidir"

**Yeganə Bayramova**

# Mirzoyan sərsəmlədi...

## Erməni nazirin məsuliyyətsiz açıqlamaları atəşkəsin pozulmasına gətirib çıxara bilər



"Azərbaycanın davamlı təcavüzkar ritorikası heç bir halda bölgədə uzunmüddətli və davamlı sülh üçün əlverişli bir mühitin yaradılmasına töhfə vermir". Bu absurd fikirləri Ermənistan Xarici işlər naziri Ararat Mirzoyan "RİA Novosti" agentliyinə müsahibəsində səsləndirib. Nazir qeyd edib ki, erməni tərəfi daim qondarma "Artsax" xalqının öz müqəddəratını təyin etmə hüququnun həyata keçirilməsinə kömək edəcək.

Azərbaycan Xarici İşlər Nazirliyi erməni tərəfinin sərsəm bəyanatını cavabsız qoymayıb. XİN-in mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bildirib ki, Ararat Mirzoyan İrəvanın bugünədək sərgilədiyi ənənəvi beynəlxalq hüquqa zidd və Azərbaycana qarşı ərazi iddialarını əks etdirən mövqeyini təkrar edib: ”Erməni xarici işlər naziri Azərbaycanın beynəlxalq sərhədləri çərçivəsindəki ərazilərində aqressiv separatçılığı qızışdırır. Bəhs etdiyi ”sülh və təhlükəsizlik strategiyası” saxtakarlıqdan başqa bir şey deyil. Bu ölkənin hələ də təcavüz siyasətindən əl çəkmədiyi ortadadır. Ermənistanın yeni xarici işlər nazirinin diqqətinə çardırırıq ki, Azərbaycan ərazi bütövlüyünü beynəlxalq hüququn tələblərinə uyğun olaraq təmin edib və hazırda tərəflərin imzaladığı bəyanatların icrasının zamanıdır. Bu reallığı dərk etmək Ermənistan tərəfinin maraqlarındadır”. L.Abdullayeva vurğulayıb ki, Azərbaycan dəfələrlə beynəlxalq hüquq prinsipləri əsasında münasibətləri normallaşdırmaq tərəfdarı olduğunu bəyan edib. Ermənistan tərəfi isə daim revanşist bəyanat və davranışları ilə önə çıxıb.

**“Ermənistan tərəfi siyasi-hərbi aqressiv hərəkətlərinin cavabını artıqlaması ilə alacaq”**

**Mirzoyanın bəyanatını ”Şərq”ə dəyərləndirən millət vəkili Arzu Nağıyev bildirib ki, yeni xarici işlər naziri ”ciddi diplomat” görüntüsü yaratmaq üçün ağlına gələni danışır, sərsəm açıqlamalar səsləndirir. Deputat vurğulayıb ki, Ermənistan tərəfi siyasi-hərbi aqressiv hərəkətlərinin cavabını artıqlaması ilə alacaq:** ”Ermənistan tərəfinin bu cür ritorikası atəşkəsin pozulmasına gətirib çıxara bilər. İrəvan hökuməti bir müddət gərginliyin artmasında maraqlı olacaq. Ermənistan Kollektiv Təhlükəsizliyi Müqaviləsi Təşkilatının üzvü olduğuna diqqət çəkmək istəyir. Çünki sentyabrdan etibarən rotasiya qaydasında KTMT-yə rəhbərlik İrəvana keçir. Yəni Paşinyan hökumətinin revanşist ritorikası daxili və xarici siyasətə hesablanıb. Ermənistanın sülh bəyanatları qeyri-səmimidir. Əgər niyyətləri ciddi olsaydı, rəsmi Bakının çoxsaylı sülh çağırışlarına müsbət cavab verərdilər. Bildirib ki, ərazi bütövlüyünün tanınma şərti ilə İrəvanla sülh bağlamaq mümkündür. Lakin indiyədək nə dəhlizlərin açılması, nə də kommunikasiyaların bərpası ilə bağlı erməni tərəfinin müsbət bəyanatını görmüşük”.

**A.Nağıyevə görə, İrəvanın əsas məqsədi Minsk qrupunu yenidən proseslərə cəlb etmək, bundan sonrakı danışıqları, müzakirələri həmsədrlərin iştirakı ilə davam etdirməkdir:** ”Məqsəd Fransanı regiona gətirmək və 10 noyabr sazişinin icrasını mümkün qədər uzatmaqdır. Amma yenə deyirəm, hamısı daxili auditoriya üçün hesablanmış siyasi bəyanatlardır. Bu cür açıqlamaların arxasında heç bir real güc yoxdur. Lokal atəşkəs pozuntularından savayı ciddi proseslərin yaşanacağına ehtimal vermirəm. Rəsmi Bakının mövqeyi qətidir. İsrarla, təmkinlə öz siyasətimizi həyata keçiririk. İrəvan qorxur ki, Ermənistan erməniləri ilə Qarabağ erməniləri arasında uçurum daha da dərinləşər. Ona görə də erməni deputatları bir qismi qondarma rejimin ”müstəqillik günündə” iştirak etmək üçün Xankəndinə gəliblər”.

**İsmayıl Qocayev**

# "Kremlin vasitəçiliyinə necə inana bilərik"

## “Ermənistan rəsmilərinin Laçın dəhlizindən keçməklə Qarabağa gəlməsinə son qoyulmalıdır”

**Ermənistan parlamentinin 20-dən çox deputatı Qarabağa, Rusiya sülhməramlılarının müvəqqəti nəzarət etdiyi əraziyə gəlib. Erməni deputatların torpaqlarımıza gəlməsində məqsəd qondarma rejimin ”müstəqillik günündə” iştirak etmək olub.**

Deputatlar arasında parlamentin hər 3 fraksiyasının - ”Şərəf duyuram”, ”Ermənistan” və ”Vətəndaş Müqaviləsi”nin üzvləri yer alıblar. Proseslər göstərir ki, Azərbaycana qarşı məkirli niyyət təkcə Ermənistan tərəfindən deyil, eyni zamanda ona dəstək verən Rusiya tərəfindən də aparılır. Çünki rəsmi Bakı dəfələrlə sərt formada çağırış edib ki, Laçın dəhlizi vasitəsi ilə qanunsuz gediş-gəlişlərə son verilməli, separatçılara siyasi-hərbi dəstək kəsilməlidir. Əfsuslar olsun ki, Qarabağdakı bir qrup terrorçuya qanunsuz əməllərini icra etmək üçün hər cür şərait yaradılır.




**Erməni deputatların Qarabağa gəlişini ”Şərq”ə dəyərləndirən Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə bildirib ki, bir müddət öncə ölkə rəhbərliyi konkret mövqeyini ortaya qoydu və bu, xalqın da yanaşması ilə üst-üstə düşürdü.** Partiya rəhbəri qeyd edib ki, rəsmi Bakı birmənalı ismarıc verdi ki, Laçın dəhlizindən qanunsuz istifadələrə son qoyulmalıdır: ”Bu bəyanatın ardınca Rusiya XİN başçısı Sergey Lavrov dedi ki, Ermənistan rəsmilərinin Laçın dəhlizindən keçməklə Qarabağa gəlməsində Moskva heç bir problem görmür. Kreml faktiki olaraq Azərbaycanın mövqeyinə əks mövqe sərgilədi. Ziddiyyət ondadır ki, bu addımı atan tərəf ”sülhməramlı” missiyanı öz üzərinə götürüb. 9 aya yaxındır görürük ki, rus hərbçiləri erməni separatçılarına dəstək verməklə onlara istənilən məsələdə havadarlıq edirlər. Qarabağa həm ermənilər, həm də silah-sursat daşınır. Bütün etirazlarımıza rəğmən, Rusiya öz işini görür, rəsmi Bakının mövqeyini nəzərə almır. Halbuki, bölgədə sülhyaratma missiyasını könüllü olaraq öz ürərinə götürən Rusiyadır. Əgər Moskva açıq-aşkar ermənilərin yanında olduğunu nümayiş etdirirsə, Kremlin vasitəçiliyinə necə inana bilərik? Ermənilər Qarabağdakı qondarma qurumu rəsmiləşdirməyə təhrik edilir. Rusiya və bəzi Avropa ölkələri Qarabağda gərginliyin artmasında maraqlıdır. Məqsəd hərbi müdaxiləyə şərait yaratmaqdır. Rusiyaya ciddi nota verilməli və son xəbərdarlıq edilməlidir. Nəticəsi olmayacaqsa, radikal addımlara əl atmalıyıq. Suveren ərazimizdə antiterror əməliyyatları həyata keçirmək hüququna malikik. Qarabağdakı separatçıları təmizləməsək, bu cür təxribatlar bitməyəcək”.

**İsmayıl Qocayev**

## Ermənistan cavabını elə alıb ki...

### Düşmən daha əvvəlki “şıltaqlığa” risk etməz

**“Ermənilərə bir dəfə şillə dəydi. Bundan sonra nəsə edə bilməyəcəklərini özləri də başa düşürlər”.**

*Bu sözləri Ermənistanın davam edən hərbi təxribatları barədə ”Şərq”ə danışan türkiyəli müharibə veteran ehtiyatda olan zabit Abdullah Ünay deyib.*

Onun sözlərinə görə, düşmən bir daha əvvəlki ”şıltaqlığa” risk etməz: ”Mən uzun illər cənub-şərqi Anadoluda terrorçularla mübarizə aparmışam. Bu işlərə yaxşı bələdəm. Bilirəm ki, düşmən cavabını aldığı ”dəcəlliyi” adətən təkrarlamır. Ermənilər terrorçuluq edə, gizli provokasiyalar törədə bilərlər. Amma bundan o tərəfə keçməz. Necə deyərlər, atəş olsalar cüzi yer yandırarlar. Buna baxmayaraq, əlbəttə, ayıq-sayıq olmalıyıq”.

**Kənan**

## Ombudsman Aparatı ana və körpəsinin ölümünə münasibət bildirib



**“Bakının Səbail rayonu ərazisində baş vermiş ana və körpəsinin ölümü ilə nəticələnən hadisə ilə bağlı dərin narahatlığımızı ifadə edir, cəmiyyətdə qadınlara, uşaqlara qarşı zorakılıq hallarının yolverilməz olduğunu bildiririk”.**

Bu barədə Ombudsman Aparatının məlumatında yer alıb.

Bildirilib ki, hadisə ilə bağlı hüquq-mühafizə orqanları tərəfindən açılmış cinayət işinin istintaqında zorakılıq elementlərinin ciddi araşdırılması və təqsirkar şəxslərin qanunun tam ciddiyəti ilə cəzalandırılması məsələsi hazırda Ombudsmanın diqqətindədir.

## Ölənlərin sayı artdı

### Azərbaycanda daha 3 759 nəfər koronavirusa yoluxub




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 3 759 yeni yoluxma faktı qeydə alınıb, 3 473 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 45 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 432 495 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 373 475 nəfər müalicə olunaraq sağalıb, 5 722 nəfər vəfat edib, aktiv xəstə sayı 53 298 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 17 678, ötən müddət ərzində isə ümumilikdə 4 498 717 test aparılıb.*

# İngiltərə Qarabağa yardım ayırdı

Böyük Britaniya Azərbaycanın haqlı davasına dəstək verən ölkələr sırasındadır



**Böyük Britaniya Dağlıq Qarabağ bölgəsində və ətrafındakı ərazilərdə minaların təmizlənməsi, ərazinin təhlükəsizliyinin təmin olunması üçün yarım milyon funt-sterlinq ayırıb.**

Böyük Britaniyanın Azərbaycandakı səfirliyindən verilən xəbərə görə, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramına verilən vəsait mina təmizləməsini dəstəkləmək və Dağlıq Qarabağda və ətrafındakı bölgələrdə çirklənmiş əraziləri insanların istifadəsi üçün təhlükəsiz hala gətirmək üçün təlim və kadr hazırlığına kömək edəcək. Xatırladaq ki, İngiltərə 44 günlük müharibədən sonra humanitar dəstək elan edən ilk ölkə olub və zərər çəkmiş insanlar üçün Beynəlxalq Qızıl Xaç Komitəsinə 1 milyon funt-sterlinq ianə edib. Həmçinin, rəsmi Londonun müharibə dövründə və sonrakı proseslərdə Azərbaycanın haqlı mövqeyini müdafiə etdiyi də məlumdur. Britaniyalı nazir Vendi Morton qeyd edib ki, Dağlıq Qarabağ və ətrafındakı ərazilər dünyanın ən çox minalanmış bölgələrindən biridir. Onun sözlərinə görə, bu bölgələrdən mülki vətəndaşların həyatlarını itirdikləri və ya həyatları üçün ağır fəsadlar yaradan xəsarətlər aldıqları barədə tez-tez məlumatlar verilir: "İngiltərənin ayırdığı vəsait Azərbaycanda mülki insanların həyatı üçün riskləri azaltmaq məqsədilə istifadə olunacaq. Bununla belə görüləcək daha çox işlər var. Bu səbəbdən beynəlxalq tərəfdaşlarımızı bölgədəki bütün insanların təhlükəsizliyini təmin etmək üçün tələb olunan kollektiv səyləri dəstəkləməyə çağırırıq". Adətən Qərb dünyasından, Avropa ölkələrindən qərəzli mövqe sərgilənməsinin şahidi oluruq. Lakin Böyük Britaniya öz müstəqil siyasəti ilə dəfələrlə müsbət mənada bizi təəccübləndirib. İngiltərənin siyasi dəstəyini Vətən savaşı dönəmində də görmüşük. Bu mənada Böyük Britaniyanın postmüharibə dövründəki maddi dəstəyi də bizim üçün xüsusi önəm kəsb edir.

**Millət vəkili Ceyhun Məmmədov "Şərq"ə deyib ki, əfsuslar olsun ki, uzun illər boyu, xüsusən torpaqlarımız işğal altında olduğu müddətdə Qərb ölkələrinin qərəzli yanaşmasının və ikili standartların şahidi olmuşuq.** Deputatın sözlərinə görə, Böyük Britaniya o dövlətlərdəndir ki, Vətən müharibəsi dövründə və sonrakı mərhələdə öz neytrallığını qorudu. Hətta Azərbaycana beynəlxalq siyasi dəstəyini əsirgəmədi, eyni zamanda maddi yardımlar etdi: "Hazırkı həssas dönəmdə İngiltərənin belə mövqe sərgiləməsi yüksək qiymətləndirilməlidir. Çünki Avropada Fransa və s. ölkələr hələ də rəsmi Bakıya ədalətsiz yanaşır, erməniləri müdafiə edirlər. Rəsmi Parisin yanaşması tamamilə qərəzlidir. Amma Böyük Britaniya ilə yanaşı İtaliya da Azərbaycanın haqlı davasına dəstək verən ölkələr sırasındadır. Elə o səbəbdən də Qarabağdakı quruculuq, bərpa işlərinə məhz bu dost ölkələrin şirkətləri cəlb olunmaqdadır. Biz İngiltərə və digər dost dövlətlərlə hərtərəfli əməkdaşlığa xüsusi önəm veririk. Bu ölkələrlə bir sıra layihələr çərçivəsində sıx əməkdaşlıq edirik. Enerji sektoru ilə yanaşı, külək və günəş enerjisi sahələrində Böyük Britaniya ilə ortaq çalışmalar həyata keçirilir. Xalqımız Böyük Britaniyanın siyasi, maddi və mənəvi dəstəyini heç zaman unutmayacaq".

**İsmayıl Qocayev**

## Laçın dəhlizini nəzarətə götürməliyik

Sülhməramlılar üçtərəfli razılaşmanı pozurlar, mandatlarını yerinə yetirmirlər

**Ermənistan parlamentinin 20-dən çox deputatı Qarabağa, Rusiya sülhməramlılarının müvəqqəti nəzarət etdiyi əraziyə gəlib.** Bu barədə Ermənistan KİV-ləri məlumat yayıb. Bildirilir ki, onlar qondarma rejimin "yaranmasının" 30 illiyi ilə bağlı tədbirə qatılacaqlar. Deputatlar arasında parlamentin hər 3 fraksiyasının - "Şərəf duyuram", "Ermənistan" və "Vətəndaş Müqaviləsi" üzvləri var.

**Düşmənin belə demək mümkünsə, üzsüzlüyü barədə "Şərq"ə danışan millət vəkili, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadənin fikrincə, adekvat tədbirlər görülməlidir:**

"Biz Laçın dəhlizini nəzarətə götürməliyik. Bu, vəziyyəti kontrol altında saxlamaqdan ötrü lazımdır. Sülhməramlılar üçtərəfli razılaşmanı pozurlar, mandatlarını yerinə yetirmirlər. Baş nazir Nikol Paşinyanın üç günlük məzuniyyətə çıxması da təsadüfi deyil. Hər zamankı kimi yenə oyun oynayırlar. Adətləri üzrə bu dəfə də qeyri-səmimidirlər".

**Kənan**

## Səs yazısı yayıldı

Əşrəf Qənini Əfqanıstanı tərk etməyə Bayden məcbur edib



**Məlum olduğu kimi, avqustun 15-də "Taliban"ın Əfqanıstanı mühasirəyə almasından sonra Prezident Əşrəf Qəni nağd pul dolu dörd maşın və bir helikopterlə ölkəni tərk etmişdi.**

"Şərq" "Haberglobal"a istinadən xəbər verir ki, dövlət başçısının qaçmasının gizlin məqamları ortaya çıxıb. Belə ki, proseslərdən əvvəl - iyulun 23-də Qəninin ABŞ Prezidenti Co Baydenlə olan telefon danışığının səs yazısı yayılıb. İddiaya görə, Bayden baş verənlərlə bağlı təsəvvürləri dəyişmək üçün Qəniyə təzyiq göstərib.

Qəni hazırda BƏƏ-də olduğunu və yaxın zamanda Əfqanıstana qayıdacağını deyib. O bildirib ki, qan tökülməsin deyə qaçıb. "İndi pulsuzam, bir cüt ayaqqabı və bir neçə əşyadan başqa özümlə heç nə götürməmişəm"- deyə prezident vurğulayıb.

**Kənan**



## Nikol müraciət etdi

Ancaq Qarabağın adını çəkmədi...

**Ermənistan hökumətinin başçısı Nikol Paşinyan "Bilik günü" münasibətilə Ermənistan ictimaiyyətinə müraciət edib.**

O, müraciətində nə "arsax", nə də orada yaşayanlar haqqında bir söz deyib. Bu, hazırda Xankəndidə yaşayanların İrəvana heç bir aidiyyətinin olmadığının göstəricisidir. Artıq Ermənistan üçün Dağlıq Qarabağ yoxdur.

Axar.az xəbər verir ki, bu barədə "İcmal" verilişinin efirində Ermənistan parlamentinin Elm, təhsil, mədəniyyət işləri üzrə daimi komissiyasının üzvü Lilit Qalstyan bildirib.

"Nikol Paşinyan və parlamentin sədri belə bir mühüm gündə Qarabağa gedə bilməsələr də, Qarabağda yaşayan ermənilərə heç olmasa, nəsə deyə bilərdilər. Lakin İrəvanın heç bir səlahiyyəti olmadığına görə onlar bu barədə heç danışa bilmirlər", - deyə erməni deputatı qeyd edib.

# "Media haqqında" qanunda KİV-in biznes tərəfi nəzərə alınmalıdır

Avropa ölkələrinin, həmçinin Türkiyənin bu sahədəki təcrübəsindən istifadə edə bilərik



Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc parlamentin payız sessiyasında "Media haqqında" qanun layihəsinin müzakirə olunacağını deyib. Parlamentari bildirib ki, qanun layihəsi müvafiq qurumlarda diskussiyalardan keçib, sənəd ətrafında ictimai müzakirələr təşkil edilib:

"Qanun layihəsinin parlamentin plenar iclasında müzakirəyə çıxarılması üçün lazımi bütün addımlar atılıb. Artıq bu yöndə hər hansı çətinlik qalmayıb".

**Yeni qanun layihəsi barədə "Şərq"ə danışan "Xalq cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli sənədi məqbul hesab etdiyini bildirib:** "İndiyədək bir neçə dəfə müxtəlif yerlərdə, o cümlədən ADA-da keçirilən seminarda yeni qanun layihəsi müzakirə olunub. Əsasən Azərbaycan peşəkar mediasında çalışanların fikirləri nəzərə alınıb. Səslənən təkliflərlə əksər media kapitanlarının rəyləri, demək olar, üst-üstə düşür. MEDİA-dakı hüquqşünaslar isə layihənin hüquqi tərəflərini nəzərə alıblar. Layihənin əsas prinsipləri haqqında məlumatlı olduğuma görə bunu yeni dövr üçün vacib sayıram. Sənəd mövcud reallıqlara uyğundur. Fikrimcə, layihə Azərbaycan mediasının maraqlarına cavab verir və KİV-in fəaliyyət istiqamətinin müəyyənləşməsi üçün kifayət qədər hüquqi əsasa malikdir".

"Türküstan" qəzetinin baş redaktoru Aqil Camal isə hesab edir ki, ciddi dəyişikliklərə ehtiyac var. Çünki dövr dəyişib: "İndiyəqədərki qanun "KİV haqqında" adlanırdı. Bu termin sovet dövründən qalıb və daha çox televiziya ilə çap mətbuatını əhatə edir. Hazırda isə internet həmin KİV-i üstələyib. Bu baxımdan yenilənmələrə ehtiyac var. İnanıram ki, yeni layihə ilə Qanunun ruhu da dəyişəcək, Azərbaycan və dünya mediasındakı gerçəkliklər nəzərə alınacaq. Və hazırkı mənzərəni əks etdirəcək".

**A.Camalın sözlərinə görə, KİV-in biznes tərəfi də nəzərə alınmalıdır:**

"Media subyektlərinin həm də sahibkarlıq subyektləri olduğu unudulmamalıdır. Güzəştlər beynəlxalq praktikaya uyğunlaşmalıdır. Avropa ölkələrinin, həmçinin Türkiyənin bu sahədəki təcrübəsindən istifadə edə bilərik. Medianın özünü təmin etmə vasitələrinin təbliğinə, o cümlədən reklam bazarının inkişafına, yayım arealının genişləndirilməsinə diqqət yetirilməlidir. Elə etmək lazımdır ki, qəzetlərin mövcudluğu qorunub saxlansın. Çünki çap mətbuatı ənənədir. Yeni qanun layihəsinin həm müasirliyə cavab verəcəyinə, həm də ənənəni qoruyub saxlayacağına ümid edirəm".

**Kənan Novruzov**

# Siyasi partiyalara yeni qanun lazımdır

"Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması ətrafında gedən söhbətlərlə bağlı müzakirə keçirilib. Bu barədə AXP sədri Pənah Hüseyn məlumat verib. Partiya rəhbəri qeyd edib ki, müzakirələrə bir sıra partiya təmsilçiləri və müstəqil ekspertlər qatılıblar. Toplantıda qeyri-rəsmi müzakirələr aparılıb. Pənah Hüseynin mövqeyi budur ki, Konstitusiyada siyasi partiyalar və seçkilərlə əlaqədar dəyişikliklər edilənə, yeni müddəalar əlavə olunana qədər siyasi partiyalar haqqında yeni qanuna ehtiyac yoxdur:





**Xəzər Teyyublu:** "Çərçivələr o qədər çoxdur ki, müxalif partiyalar fəaliyyətsiz vəziyyətdə qalıblar"

**Əli Orucov:** "Hazırda partiyaları sıxan əsas problem maliyyələşmə məsələsidir"

"Konseptual olaraq, mən siyasi partiyalar haqqında qanunun, siyasi partiyalar formasında birləşmə hüququ praktikasının, o cümlədən təsisi və dövlət qeydiyyatının daha da sadələşdirilməsi, asanlaşdırılması, demokratikləşdirilməsi tərəfdarıyam. Bizə çatan məlumatlarda yeni qanun təşəbbüsçülərinin əks niyyətli olduğu deyilir. Partiyalarda birləşməni çətinləşdirən yeni məhdudiyyətlərin gətirilməsi istənilir. Xüsusi xoşagəlməz hal odur ki, bu məhdudiyyətlər, ümumiyyətlə yeni qanun layihəsinin qəbulu, guya, bir sıra mövcud qeyri-iqtidar siyasi partiyaların adından, onların tələbi kimi təqdim edilə bilər". P.Hüseynin sözlərinə görə, siyasi partiyalarda birləşmə hüququnun məhdudlaşdırılması məntiqi olaraq qeyri formal təşkilatlanma və qeyri-hüquqi siyasi fəaliyyət formalarının yayılması və güclənməsi, sistem müxalifətinin tamamilə marginallaşması və sıradan çıxması ilə nəticələnə bilər.

**Klassik Xalq Cəbhəsi Partiyasının sədr müavini Xəzər Teyyublu "Siyasi partiyalar haqqında" qanun layihəsi ətrafında gedən söhbətlərə münasibət bildirib. Partiya funksioneri vurğulayıb ki, siyasi partiyaların fəaliyyətində çoxlu məhdudiyyətlər var:** "Çərçivələr o qədər çoxdur ki, müxalif partiyalar fəaliyyətsiz vəziyyətdə qalıblar. Uzun zamandır müzakirə olunsa da, siyasi partiyalar haqqında normal qanun qəbul edilməyib. Son bir ildə siyasi hakimiyyətin müxalif partiyalara qarşı mövqeyi müsbətə doğru dəyişib. Loyal münasibət nəticəsində bir neçə partiya qeydiyyatdan keçib, onların qərargahı üçün ofislər veriblər. Bunlar müsbət addımlardır. Amma görülməsi işlər çoxdur. Əgər bir partiya qeydiyyatdan keçirsə, onun yerlərdəki təşkilatları da ofislərlə təmin olunmalıdır. Ən mühüm məsələ isə Pənah bəyin də deyiyi kimi siyasi partiyalarla bağlı Konstitusiya dəyişikliyinə gedilməsidir. Ölkəmizdə proporsional seçki sistemi bərpa olunmalıdır. Siyasi partiyaların birbaşa fəaliyyəti və gələcəyi proporsional seçki sistemindən asılıdır. Partiyaların inkişafı və cəmiyyətdə oturuşması bu yolla mümkündür. Əslində, bu dəyişiklik siyasi hakimiyyətin özü üçün lazımdır. Çünki biz təklif etdiyimiz seçki sistemi ilə cəmiyyətdə hansı partiyanın həqiqi nüfuza malik olduğu, dəstəkçisinin nə qədər olduğu üzə çıxacaq. Zəif və dəstəyi olmayan partiyalar ya sıradan çıxacaq, ya da böyük partiyalara birləşəcək".

**AMİP-in Siyasi Şurasının üzvü Əli Orucov da "Şərq"ə açıqlamasında deyib ki, hər dəfə siyasi partiyalar haqqında qanunlara əlavələr və dəyişikliklər ediləndə mövqe daha da mühafizəkarlaşır:** "Pis-yaxşı hazırkı "siyasi partiyalar haqqında" qanun partiyaları qane edir. Çünki dəqiq bilirik ki, yeni dəyişiliklər bundan yaxşı olmayacaq və əleyhimizə işləyəcək. Əsas olan qanunların işləmə mexanizmidir. Əgər düzəlişlərdə həqiqətən pozitiv müddəalar nəzərdə tutulursa, bu, təqdir olunacaq. Hazırda partiyaları sıxan əsas problem maliyyələşmə məsələsidir. Cəmiyyətdə fikir plüralizmi və siyasi rəqabət mühiti inkişaf etməlidir. Proporsional seçki sistemi bərpa edilməlidir. Mərkəzi Seçki Komissiyası total inhisarçılıqdan çıxmalıdır. İnanmaq istərdim ki, problemlər öz həllini tapacaq. Siyasi və sivil rəqabət olmayanda cəmiyyətdə radikallaşma meyilləri artır və bundan radikal qüvvələr istifadə edir. Bunun nəticələri acı olar".

**İsmayıl Qocayev**



# Taliban" Şərqdə bütün ölkələrə təhlükə yarada bilər

## Belə bir terrorçu qruplaşmadan dövlət idarəçiliyi gözləmək əbəsdir

**Əfqanıstanın yeni hökumətinə "Taliban" hərəkatının lideri Heybətullah Axundzadə başçılıq edəcək. Bunu hərəkatın mədəniyyət komissiyasının üzvü Anamulla Səmənqani bəyan edib.**

"O, hökumət başçısı olacaq. Bu barədə heç bir şübhə olmamalıdır", -deyə "Taliban" rəsmisi bildirib.

Yayılan məlumatlara görə, yeni hökumətin tərkibi sentyabrın 3-də elan ediləcək.

**Hərbi-siyasi ekspert Həşim Səhrablı "Şərq"ə açıqlamasında bildirib ki, baş verənlər birbaşa ABŞ-ın "başının altından çıxır:** "Düzdür, dünya dövlətlərinin "Taliban"la bağlı rəsmi və konkret mövqeyi hələlik yoxdur. Amma İran ən azı iqtisadi sahədə əməkdaşlıq etməyə razı kimi görünür. Rusiyanın neqativ münasibətinin, narahatlığının səbəbi isə aydındır. Belə ki, sovet qoşunlarının Əfqanıstana hücumu zamanı onların qarşısını alan məhz "Taliban" olmuşdu. Türkiyə və "Taliban" bir-birlərinə müsbət mesajlar versələr də, münasibətlər ziddiyyətlidir. Ankara Əfqanıstandakı yeni hökuməti tanımaqla özünə problem yarada bilər. Belədə düşmənlər terrorçu PKK-nın dövlət yaratması iddiası ilə çıxış edərlər. Ümumiyyətlə, "Taliban" Şərqdə bütün ölkələrə qarşı təhlükə yarada bilər. Belə bir terrorçu qruplaşmadan dövlət idarəçiliyi gözləmək əbəsdir. Kimlərlə ortaq olacaq, nə vaxt hansı qərarı verəcək bilinmir. Necə deyərlər, bu gün bir, sabah başqa söz deməsi mümkündür. Hər şeyi dəqiq hesab eləyən ABŞ çox yaxşı ağıl oyunu oynayır. İndi Türkiyənin Orta Asiyadakı yolunu nə Rusiya, nə də İran aça bilər. Bunu ancaq ABŞ bacarar. Beləliklə, bir müddət şərq blokuna meyillənən qardaş ölkə indi Əfqanıstanı itirməməkdən ötrü yenidən qərb blokuna qayıtmalı olacaq".

**Kənan**

# "Marketdən çörək almağa pulum yoxdur"

## Şahbaz Quliyev: "Yardım üçün gəlirlər, şəkil çəkdirib qayıdırlar"

**"Kənddəki evim dağılıb, baxan yoxdur. Çox pis şəraitdə yaşayıram. Mənə Sosial Müdafiə Nazirliyi 130 manat təqaüd yazıb. Amma hansısa iş görə bilmirəm, qollarım işləmir, ayaqlarım, ciyərlərim pis vəziyyətdədir".**

**Bu sözləri "Şərq"ə açıqlamasında keçmiş girov Şahbaz Quliyev söyləyib. O, maddi sıxıntılarının olduğunu xüsusi vurğulayıb:** "Məndən əmək kitabçası istəyirlər. Hərbidən təqaüdə çıxa bilməmişəm, qazi adı da ala bilmədim. İş də tapmaq mümkün olmadı, getdim "moyka"da çalışdım. Bir tərəfdən ölürəm, digər tərəfdən də ailəm dağıldı.

Yardım üçün gəlirlər, şəkil çəkdirib qayıdırlar. Marketdən çörək almağa pulum yoxdursa, o ziyarəti nə edim? Nə vaxta qədər bacım minbir əziyyətlə çalışıb mənə pendir-çörək göndərəcək? Prezidentimiz cənab İlham Əliyev sağ olsun ki, məni ailəmə qovuşdurdu, rəhmətlik anamla görüşdürdü.

Ona minnətdaram, ölənə qədər də borcluyam. Hər zaman Ali Baş Komandanımıza sağlıq arzu edirəm. Sayəsində ikinci dəfə həyata qayıtdım. Lakin bəzi məmurlar məni qəbul etmirlər.

**"Heç olmasa sağlamlıq kağızı versinlər, haradasa fəhlə işləyib, ailəmi dolandırım"**



Sosial yardım üçün müraciət edirəm, itələyib geri qaytarırlar. Veteranlarla maraqlanan Elbrus müəllim var, onun yanına gedirəm, məni içəri buraxmır. Adımı çəkəndə deyir ki, nə olsun girov olmusan? Dərdimi kimə danışım?

Nə vaxta qədər bacımın evində qalacam? Öz evimi təmir etdirib, yaşamaq istəyirəm. Jurnalistlər müsahibə üçün gəlmişdilər, evdə stul yox idi. Yeddi aydır bu çətinlikləri dilə gətirmirəm. Heç olmasa sağlamlıq kağızı versinlər, haradasa fəhlə işləyib, ailəmi dolandırım. İki-üç ay, bir il yaşayacağamsa, adam kimi yaşayım.

Vaxtında mənim də vardövlətim olub. Əsirlikdə olarkən ailəm satıb, dolanıblar, qızımı böyüdüb, oxudub. İndi məmurlar qapıdan içəri buraxmırlar ki, sözümü deyim, məni eşitsinlər. İcraya gedirəm, söyləyir ki, get Kəlbəcərdən, nazirliklərdən torpaq istə".

**Ş.Quliyev onu da deyib ki, səhhəti ilə bağlı ciddi problemlər yaşayır:** "Bura gələndən yatmıram, həkimlərimiz sağ olsunlar, müalicə edirlər. Yenə də düzəlməmişəm. Camaat kimi rahat yemək yeyə bilmirəm, çox pis durumdayam. Nə zamana qədər evdə topal uzanacam? Müalicə olunan adam faydalı qida qəbul etməli deyilmi? Bir nəfər qapımı açmır. Evdə televiziya, radio da yoxdur. Evimə nəinki 1 manat, 10 qəpik də gəlmir. Xəstəxanaya getməyə yol pulum olmur".

**Samirə**





# "Akıncı" Yunanıstanı sarsıtdı

## Türkiyə yeni silahını göstərdi, Afina narahat olub



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə bir neçə gün əvvəl "Akıncı" adlı pilotsuz hücum aparatının (TİHA) silahlı qüvvələrin inventarına daxil edilməsi Yunanıstan ictimaiyyətində ciddi rezonans doğurub.**

Yunanıstanın "Kathimerini" başda olmaqla, bir sıra tirajlı qəzetləri Ərdoğanın təqdimetmə mərasimində çıxışından sitatlar gətiriblər. Xüsusilə, dövlət başçısının "Regionumuzda bir daş belə yerindən götürmək istəyən Türkiyənin cavabını gözləyəcək" sözlərinin hegemon ölkələrə ciddi siqnal olduğu bildirilib.

"Proto Thema" nəşrinin məlumatına görə isə Türkiyə "Akıncı" ilə dünyanın bu texnologiyada 3 ən öndə gələn ölkəsindən birinə çevrilib.

Yunanıstan digər KİV-ləri "Akıncı" ilə bağlı daha obrazlı ifadələrə müraciət edib. Belə ki, telekanallardan biri yeni pilotsuz aparatı Fateh Sultan Məhmət ordusunun İstanbulu fəth edən zaman istifadə etdiyi alov toplarına bənzədib. Yunan mediası "Ankara tərəfindən isti payız planlaşdırılır: Türkiyənin silahlı pilotsuz təyyarələrinin kütləvi istehsalı Afinanı narahat edir" başlığı ilə Türk ordusunun PUA-larda pik nöqtəyə çatdığını yazıb.

Saytdakı xəbərlər "Suriya, Liviya və Dağlıq Qarabağda geniş və uğurla istifadə edilən məşhur Bayraktardan sonra Türkiyə indi daha da inkişaf etmiş bir Akıncının kütləvi istehsalına davam edir" cümləsi ilə davam edib: "Türk PUA-larının iştirak etdiyi savaşlar oyun qaydalarının dəyişdiyini göstərdi. Yunan Silahlı Qüvvələri nizamlı və yaxşı təchiz olunmuş bir ordu olsa da, müasir pilotsuz maşınların ordu üçün ciddi bir risk yaratdığını gözardı etmək olmaz".

*Qeyd edək ki, "Akıncı" PUA-ları 900 kilodan çox raket və ya bomba daşıya bilir. 25 saat havada qalma qabiliyyəti və daşıya biləcəyi raketlərlə qeyri-adi xüsusiyyətlərə malikdir.*

**İsmayıl**



# Azərbaycan və Türkiyə hərbçiləri Bakıda birgə təlim-məşqlərə başlayıb

## İkitərəfli birgə məşqlər sentyabrın 12-dək davam edəcək



**Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında bağlanmış hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən hər iki qardaş ölkənin hərbçiləri birgə təlim-məşqlərə başlayıb.**

Müdafiə Nazirliyindən "Şərq" ə verilən məlumata görə, Azərbaycan və Türkiyə hərbçilərinin iştirakı ilə keçirilən məşqlərin əsas məqsədi döyüş əməliyyatlarının aparılması zamanı iki ölkə ordularının bölmələrinin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi, komandirlərin hərbi qərar qəbuletmə və bölmələri idarəetmə vərdişlərinin inkişaf etdirilməsidir.

Məşqlərdə həmçinin sualtı hücum və sualtı müdafiə əməliyyatlarının aparılması tapşırıqları da icra ediləcək.

*İkitərəfli birgə məşqlər sentyabrın 12-dək davam edəcək.*

# "Qızdırma, öskürək olduqda panikaya düşmək lazım deyil"

## Koronavirusa yoluxanlar bu halda dərhal təcili yardım çağırmalıdırlar



**Xəstələr çox yorğundurlarsa, hərəkət edə bilmirlərsə, qızdırmaları düşmürsə, nəfəs darlığı başlayıbsa, təcili yardıma zəng etməlidirlər. Onların klinikaya yerləşmələri tövsiyə olunur.**

Trend xəbər verir ki, bunu Səhiyyə Nazirliyinin mütəxəssisi, uzman terapevt Zakir Quliyev deyib.

O bildirib ki, xəstələr ilk növbədə öz bədənlərində baş verən dəyişiklikləri hiss etməli, bilməlidirlər: "Qızdırma, öskürək olduqda qorxmaq, panikaya düşmək lazım deyil. Qızdırma bütün virus mənşəli xəstəliklərdə müşahidə edilə biləcək simptomdur. Xəstələrə tövsiyə edirik ki, əgər, qızdırma hərarət salan dərmanlara cavab verirsə, yəni dərmanlar vasitəsilə qızdırma düşürsə, o zaman bu qızdırmadan qorxmasınlar. Həmçinin, nəfəsi 10 saniyənin üzərində saxlaya bilirlərsə, panikaya düşməsinlər. Yox əgər, evdə müalicə alan xəstələrdə qızdırma düşmürsə, nəfəs alarkən öskürək, qıcıqlanma olursa, dərhal təcili yardım çağırmaq lazımdır. Bəzən xəstələr klinikaya yatmaqda gecikirlər. Bu məsələ çox önəmlidir".

# Ermənilər Zəngəzuru sürətlə boşaldırlar

## Məğlub və kasıb Ermənistanda normal yaşamaq mümkün deyil



**Ermənistanın regionlarında yaşayan əhali sürətlə azalmağa davam edir. Erməni mənbələrində qeyd olunan 1 iyul 2021-ci il tarixinə aid statistik məlumatlar əsasında bəlli olub ki, əhalinin sayında ən çox azalma Zəngəzurda qeydə alınıb.**

Belə ki, Zəngəzurda əhalinin sayı cari ilin birinci yarısında təxminən 700 nəfər azalıb. Zəngəzurun inzibati mərkəzi sayılan Qafanda sözügedən rəqəm 400 nəfərə bərabər olub. Göstərilən rəqəmlər onsuz da əhalisinin ümumi sayı üç milyona çatmayan Ermənistan üçün olduqca təhlükəli həddədir və bu prosesin kütləvi hal aldığı deyilir. Ermənistanın Azərbaycanla sərhəd Tavuş vilayətində də analoji vəziyyət hökm sürür. Burada cari ilin birinci yarısında əhalinin sayı 600 nəfər azalıb.

**Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev "Şərq"ə bildirib ki, son 30 ildə Ermənistan siyasi ilderləri, tanınmış ictimai xadimlər, hətta elm və sənət adamları belə sistemli olaraq erməni faşizmini təbliğ etdilər.** Nəticədə Ermənistan siyasi, iqtisadi və demoqrafiq krizisə yuvarlandı. Partiya təmsilçisinin fikrincə, Ermənistan əhalisinin sürətlə azalması məhz xəstə təxəyyüllü erməni liderlərinin fəaliyyətinin acı nəticəsidir: "Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları hərbi müstəviyə keçməzdən öncə ermənilər torpaqlarımızda firavan həyat sürüblər. Ancaq bir müddət sonra xəstə təfəkkürlü "başbilənlərinin" güdazına gediblər və "böyük Ermənistan" xülyasına düşüblər. Ancaq Ermənistan müharibədə ağır məğlubiyyətə düçar oldu. Məğlub və kasıb Ermənistanda normal yaşamaq mümkün deyil. Ona görə də yaşadıqları yeri tərk edən ermənilər Rusiya və Qərb ölkələrinə üz tuturlar. 44 günlük müharibə başlayana qədər Ermənistanda köçlə bağlı müəyyən durğunluq yaranmışdı. Lakin son hadisələr və müharibənin gətirdiyi acı reallıq erməniləri yenidən yollara saldı. Əslində bu narahatlığı yaradanlar erməni şovinistləridir. Ermənistan ordusunun çökməsinə baxmayaraq, revanşist qüvvələr münaqişəni alovlandırmağa çalışırlar. Azərbaycanın gücünün və iradəsinin şahidi olan ermənilər növbəti müharibə qorxusundan təşvişə düşür. Məlum səbəblərdən hazırda Rusiya və Qərb istiqamətinə hərəkət məhdudlaşdırılıb. O səbəbdən Zəngəzurdan köçən erməni əhali ölkənin dərinliyinə doğru hərəkət edirlər".

**V.Əfəndiyev vurğulayıb ki, Azərbaycan ordusu hətta müharibə dövründə belə mülki ermənilərə ziyan verməyib:** "Prezident öz bəyanatlarında dəfələrlə ermənilərə birgəyaşayış mesajları verib. Azərbaycan tərəfi Qarabağda qalıb yaşamaq istəyən ermənilərə hər cür imkan yaradılacağı öhdəliyini götürüb. Məncə, erməni əsilli vətəndaşlarımızın adaptasiya olunması üçün qanunlar paketinin hazırlanmasına ehtiyac var".

**İsmayıl Qocayev**



**Şahbaz Xuduoğlu:**
*"Burada anormal nəsə axtarmağa dəyməz. Şəxsən mən ideyanı bəyəndim, rəsmlər də çox gözəl alınıb. Məsələn, Xurşidbanu Natəvanın kafedə çay içməsi necə də incə, estetik görünür"*

# Gənc rəssam klassiklərimizi müasirləşdirdi







## Yüzlərlə rəy yazıldı, bəyənənlərlə bəyənməyənlərin mübarizəsi gedir

Sosial şəbəkədə klassiklərimizin yaşadığımız dövrə zahirən uyğunlaşdırılmış rəsmləri yayılıb. Rəsmlər "Əli və Nino" kitab evi tərəfindən təqdim edilib. "Gənc və istedadlı rəssamın gözündən dahi klassiklərimiz - müasir dövrdə! Əsas ideyası "Klassiklərimiz həmişə yaşayır!" olan bu yaradıcı nümunələr müasir dövrdə klassik yazarların daima öz aktuallığını qoruyub saxladığını, həyatın hər anında insanların yanında olduğunu ifadə edir", cümlələri ilə təqdim olunan rəsmlərin müəllifinin adı isə göstərilməyib.

Amma dünən sosial şəbəkədə ən çox müzakirə olunan məhz bu rəsmlər idi. Yüzlərlə rəy yazılmışdı. Bəyənənlərlə, bəyənməyənlərin mübarizəsi gedirdi. Maraqlı olduğu üçün bəzisinə göz gəzdirək:

**Anar Məmmədli:** Əladır. Bu gözəl işlərin müəllifi kimdir?

**Sevda Sədəf:**
Adamın Natəvanla oturub çay içməyi gəlir.

El Vin:
Elə bil KFC dedi...

**Səbinə Cəfərova:**
Nə zərurət vardı? Başqa ideyalar doğula bilmir? Bu dahilər yüzilliklər ötsə də onsuz da yanımızdadırlar, aktualdırlar. Onların həmişəyaşar olmaları məgər bu tip rəsmlər səbəbindənmi baş verib və ya verəcək????

**İlahə Tağıyeva İbrahimli:**
İstedadlı ola bilər, şəkil olaraq maraqlı alınıb, amma mən dahilərimizin bu hala salınmasını sevmədim, bəyənmədim, yaraşdırmadım, düzgün hesab etmirəm. Rəssama bundan sonrakı fəaliyyətində uğurlar.

**Mirseyfulla Həsənov:**
Avropalılar Füzulini "Qəlb şairi" adlandırır, bu isə ona "Qərb şairi" imicini sırımaq istəyir, Xurşidbanu Natəvan Qərb mədəniyyətinə çox yaxşı bələd olduğu halda, onların platyalarını, şlyapalarını deyil, Azərbaycan milli donunu, yaşmağını tərcih edirdi, bu onu məcburi Qərb tərzinə salıb, Sabir "biz hələ avtomobil minməyiriz" deyirdi, bu ona "samokat"ı rəva görüb, "mən Xaqana yox, Xalqa məxsusam", deyən şairi xalq bu halda nə dərəcədə qəbul edərdi?

**İsmayil Quluzadə:**
Çox lazımsız bir işdir.

**Oktay Quliyev:**
Siz evinizdəki qadınlarınıza düz-əməlli paltar geyindirə bilmirsiz, bu şəxsiyyətlərə paltar ölçürsüz?

**Cavad Əsgərov:** Bu şəxsiyyətləri bu hala salmaqdansa atalarını bu hala salıb qurdlarını öldürsünlər.

**Turan Xəlilov:**
Bunları müdafiə edən kəlçəbaşlar təsəvvür edin atababalarınızın şəkillərini bu cür çəkib paylaşırlar. Birini eşşəyin üstündə, birini, qiyafəsində, birini motosikl üstündə ağzında siqar. ..Alqışlayın - müasirlikdir.

**Şahin Əkbər:** "Ali və Nino"nun reklamı baxımından ideya maraqlıdır, ancaq o şairlərin şeirləri və xarakterləri ilə şəkillər arasında bir əlaqə görə bilmədim. Bu adamları tanımayan biri şəkillərə baxaraq bu adamlar haqqında doğru fikir sahibi ola bilərmi?

**Alişah Talıbov:**
Qırağa çıxmadan abu-havanı qorumaq hər adamın işi deyil. Bu iş kimi. Ya bu işi kommersiya xətrinə yola verib, ya da elə bildiyi budur. Cox bərbad . "Ali Nino" yox, "Wolt" reklami olsaydı, hardasa başa düşülən olardı.

**Orxan Əliyev:**
Rəylərə baxıram, gülməyim gəlir. Bəziləri guya indi "bomba"dı da, tənqid edirlər. Xarici səhifələr öz dahiləri üçün hazırlasaydılar bunlara kreativlik deyərdilər. Bunlar da guya öz aləmində rəy yazıblar. Bravo "Ali və Nino". Gözəl və kreativ paylaşım üçün təşəkkürlər!

**Fuad Əhməd:**
Kimsə Azərbaycanın milli-mənəvi dəyərlərinə dil uzadıb, müdaxilə etməyə cəhd edirsə, şəcərəsi ilə maraqlansın bir zəhmət...

**Samir Həmidoğlu:**
Azər Saninin bir sözü var, deyir "get Fizulinin heykəlinə, bir o kişinin geyiminə, başındakı əmmaməyə, üzündəki saqqala bax, gör, o xalxın arvadına şeir yazan kişiyə oxşayir?". İndi bu şəkilləri gördüm, o düşdü yadıma.

**Röyanə Cəfər:**
Bəzi dəyərlər var ki, onlar toxunulmazdı. Gənc rəssam klassiklərimizin yaradıcılığı ilə yaxından tanış olsaydı, beynində daha parlaq işıqlar yanardı və onlarla bağlı daha faydalı ideyalar ortaya çıxardı...

**Fizəki İskəndəriyyə:**
Heç xos təəssürat bağışlamadı. Öz reklamları üçün gör nələrə əl atırlar. Dahi səxsiyyətləri müasir dövrün adamı kimi təsəvvür etmək nəyə lazım? Belə etməklə onları gözdən salmağa çalışırsınız? Kim çəkibsə bu karikaturanı, getsin öz nəslindəkilərin karikaturasını çəksin

**Musa Quliyev:**
Bu, kreativlik deyil! Yerli mədəniyyətimizi və milli geyimlərimizi təmsil edən ziyalılarımızı (sair və yazıçıları) bu vəziyyətə salmaqla ancaq "Qərb mədəniyyətini" reklam etmiş olursunuz.

Rəssam istedadlıdır, bu ayrı məsələ. Amma bu mövzu heç xoş deyil.

**Oruc Yəhya:**
Yazıq Sabir. Yenə kasıb. Amma gərək əlində siqaret olardı. Bu xalqın gününü görüb siqaret çəkməməsi real görsənmir.

**İntizar Cabbar**
Bu dövrdə yaşasaydılar belə geyinəcəkdilər. Nə var ki burda?! "Alimlər" yenə başlayıblar gic-gic yazmağa. Hansısa bir avropalı etsəydi, olacaqdı kreativlik.

Sovet dövründə yaşamayıb, amma hələ də sovet ideologiyasında olanlara məəttələm.

**Visual Render:**
Bilmirlər daha kimə sataşsınlar, işini-gücünüz qurtarıb...?

**Nurlan Cəbrayılzadə:**
Bu nə deməkdir? Bu nədir axı? Azərbaycan klassiklərini, dahilərini bu vəziyyətə gətirmək yalnız və yalnız ağılsızlıqdır! Çünki onlar müasir deyil, qədim dövrlərin şedevrləridir. Və olduqları kimi sevilməyə haqları var!!!

**Sosial şəbəkədə aparılan polemikalar barədə rəyini soruşduğumuz "Qanun" nəşriyyatının direktoru, naşir Şahbaz Xuduoğlu "Şərq"ə açıqlamasında müzakirələri, fikir ayrılıqlarını, eləcə də rəsmləri normal qarşıladığını bildirdi:**

- Mən burda qəbahətli bir iş görmürəm. Hamısı normal rəsmlərdir. Nizami Gəncəvini dövründə canlı görənlər öz müasirləri olub. Sonrakı nəsillər, eləcə də 20 və 21-ci əsrin insanları Nizami şəxsiyyətini yaradıcılığından, yazdığı əsərlərdə ortaya qoyduğu ideyalardan, fikirlərdən tanıyıblar. Biz klassikləri təqdim edildikləri kimi tanıyırıq. Onlar sözləri, fikirləri ilə həmişə gəncdirlər və bütün dövrlər üçün müasirdirlər. Varlıq olaraq, şəxsiyyət olaraq müasirdirlər. Rəssamın işi postmodernist bir yanaşmadır. Klassiklərin adlarına müasir imic əlavə etməkdir. Bir növ klassikləri varlıq olaraq aktivləşdirməkdir. Rəssam göstərmək istəyib ki, klassiklərimizi zahirən, görkəmcə də müasirləşdirmək mümkündür. Onlar bizim müasirimiz ola bilər. Təkcə təfəkkür baxımından deyil, zahiri görkəmcə də. Hamımız bilirik ki, bu şəxslər öz dövrlərinin qabaqcıl insanları, zəmanələrinə ironiya ilə, sarkazmla yanaşan insanlar olub. Biz dünyanı onların baxışları, düşüncələri və əsərləri ilə tanımışıq. Onlar öz əsərləri ilə daim canlıdırlar. Bu dəfə də zahiri görkəmcə müasir olsunlar. Müasirləşsinlər. Burada anormal nəsə axtarmağa dəyməz. Şəxsən mən ideyanı bəyəndim, rəsmlər də çox gözəl alınıb. Məsələn, Xurşidbanu Natəvanın kafedə çay içməsi necə də incə, estetik görünür.

**Məlahət Rzayeva**

# Ukrayna ən ağıllı yolu tutub

## Kiyev milli maraqlarını və suverenliyini qorumaq üçün Qərbin ona dəstək mexanizmlərinin gücləndirilməsinə çalışır

**Xəbər verildiyi kimi, Ağ Evdə ABŞ və Ukrayna prezidentləri Co Baydenlə Vladimir Zelenski və nümayəndə heyətləri arasında görüş keçirilib. İki saat davam edən görüşdə ölkələr arasında bir sıra sahələr üzrə strateji tərəfdaşlığın vacibliyi vurğulanıb.**

**Mövzu ilə əlaqədar fikirlərini "Şərq"lə bölüşən politoloq Nurlan Qələndərli deyib ki, görüşdə müzakirə olunan məsələlər tərəflərin strateji əhəmiyyət kəsb edən müxtəlif sahələrdə əməkdaşlığı dərinləşdirmək niyyətində olduqlarını göstərir:** "Görünən odur ki, həm ABŞ, həm də Ukrayna yeni dönəmdə tərəfdaşlıqla bağlı strateji prioritetləri dəqiq müəyyənləşdiriblər. Bu kontekstdə bir sıra nüanslara xüsusi diqqət yetirmək lazımdır. Əvvəla, beynəlxalq münasibətlər sistemində geopolitik transformasiyanın müşahidə olunduğu indiki şəraitdə ABŞ-ın Avrasiyada təsir imkanlarını daha da gücləndirmək üçün işbirliyinə önəm verdiyi ölkələrdən biri Ukraynadır. Bu, təsadüfi deyil və konkret olaraq bir sıra mühüm geostrateji amillərlə şərtlənir. Birincisi, Ukrayna həm təbii-coğrafi və siyasi sərhədlərinə, həm iqtisadi-siyasi resurslarına və təsir mexanizmlərinə, həm də strateji önəminə görə olduqca perspektivli və faydalı tərəfdaşdır. İkincisi, Ukrayna ilə əməkdaşlıq Avrasiyanın "heratland" nöqtələrindən hesab olunan Şərqi Avropada, o cümlədən Qara dənizdə geoiqtisadi mövqeləri möhkəmləndirmək baxımından çox önəmlidir. Bu ölkə, eyni zamanda, Avropa üçün əks qütbdə yer alan regional geosiyasi rəqiblərdən "müdafiə səddi" olmaqla yanaşı, Avroatlantik məkanın təhlükəsizlik sistemində də əhəmiyyətli ölkələrdən biridir. Bütövlükdə, bu və digər amillər indiki mərhələdə Ukrayna ilə qarşılıqlı faydalı işbirliyini gücləndirmək zərurəti yaradan strateji faktorlardır".

**"ABŞ-ın Avrasiyada təsir imkanlarını daha da gücləndirmək üçün işbirliyinə önəm verdiyi ölkələrdən biri Ukraynadır"**



N.Qələndərlinin sözlərinə görə, hazırda Ukrayna da Avroatlantik məkana inteqrasiya kursu çərçivəsində Qərb ilə, o cümlədən ABŞ-la əməkdaşlığa böyük önəm verir: "Kiyev yeni mərhələdə Vaşinqtonla qarşılıqlı faydalı əməkdaşlığın əhatə dairəsinin genişləndirilməsini həm siyasi, həm də iqtisadi dividendlər qazanmaq üçün vacib faktor hesab edir. Xüsusilə də, regional və milli təhlükəsizlik məsələləri bu işbirliyində prioritet istiqamətlərdəndir. Ukrayna milli maraqlarını və suverenliyini qorumaq üçün Qərbin ona dəstək mexanizmlərinin gücləndirilməsinə çalışır. Məlumdur ki, bu dövlət Qərb ölkələrinin iqtisadi və hərbi cəhətdən yardım etdiyi dövlətlərin siyahısında ön sıralardadır. Eyni zamanda, Polşanın, Bolqarıstan və Rumıniyanın Avropa İttifaqının üzvü olması Kiyevi Avropa İttifaqının "siyasi qonşu"suna çevirib. Ona görə də hazırkı mərhələdə Ukrayna ilə Qərb dövlətləri, o cümlədən Birləşmiş Ştatlar arasında siyasi, iqtisadi və təhlükəsizlik sahələrində əməkdaşlığın sabit davam etdirilməsinə regional və beynəlxalq əhəmiyyətli məsələ kimi nəzər salınır. Elə Qərb də mühüm geostrateji dividendlər qazanmaq üçün regionda bu ölkə ətrafında siyasi təhlükəsizlik çətiri formalaşdırır".

Politoloqun qənaətinə əsasən, qarşıdakı dövrdə Ukraynanın Qərb dövlətləri, o cümlədən ABŞ ilə regional miqyasda siyasi, iqtisadi və təhlükəsizlik məsələləri çərçivəsində diplomatik təmaslarının intensivləşəcəyi müşahidə olunacaq.

**Aynurə**

# Dünyada etimad itir

## Yüz minlərlə əfqanlı ölüm təhlükəsi ilə üz-üzə buraxılıb

Avropa İttifaqının müdafiə nazirlərinin qeyri-rəsmi görüşündə iştirak etmək üçün Sloveniyaya gələn təşkilatın xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozef Borrel bildirib ki, ABŞ qoşunlarının Əfqanıstandan çıxarılması ilə bağlı vəziyyətdən sonra Avropa İttifaqının (Aİ) şəxsi müdafiə sisteminin yaradılması zərurəti ortaya çıxıb. O qeyd edib ki, Əfqanıstanda baş verən tarixi hadisələr onları "Aİnin strateji kompası" adlı təhlükəsizlik konsepsiyasını işləyib hazırlamağa məcbur edib. O diqqətə çatdırıb ki, bu konsepsiyanın yekun layihəsi oktyabr-noyabr aylarında təqdim ediləcək.

**Avropa Birliyinin müdafiə sisteminin yaradılmasının yeni bir təklif olmadığını vurğulayan politoloq Natiq Miri "Şərq"ə açıqlamasında deyib ki, əslində bu məsələ Tramp dönəmində ciddi müzakirə predmeti olub: "** Çünki Tramp dönəmində NATO-nun dağılması məsələsi gündəmə gəlmişdi. NATO-nun maliyyə xərclərinin təkcə Amerika Birləşmiş Ştatlarının büdcəsi hesabına deyil, hər bir NATO üzvü ölkəsinin ümumdaxili məhsulunun iki faizinin bu ittifaqa verilməsi vaxtilə Donald Tramp tərəfindən tələb olunurdu. O gündən etibarən əslində bu məsələ Avropada müzakirə predmetidir. Hətta bununla bağlı müəyyən qərarlar da qəbul olunub. Ancaq bu, Avropa üçün o qədər də sıradan bir məsələ deyil. Çünki Avropanın təhlükəsizlik sistemi Amerika Birləşmiş Ştatları ilə müttəfiqlik çərçivəsində həyata keçirilir. ABŞ-ın NATO üzvü olduğu bəzi ölkələrində hərbi bazaları mövcuddur. Xüsusilə də, Avropa İttifaqının ən güclü ölkəsi olan İngiltərənin də Avropa Birliyi İttifaqından çıxmasından sonra bu məsələ xüsusi olaraq gündəmə gəlib. Ayrıca, Avropa İttifaqının təhlükəsizlik məsələsi bir də Rusiyanın təhlükəsizliyi ilə bağlıdır. Çünki Rusiya Avropa ilə sərhədlərdə ən strateji hücum raketləri və havadan müdafiə sistemlərini yerləşdirib. Bu da hər zaman Avropa üçün müəyyən mənada təhdid, təhlükə obyektidir. Ona görə də Avropanın Amerika Birləşmiş Ştatlarından, eyni zamanda ABŞ-ın ipinin çəkdiyi NATO-dan kənarda özünün müstəqil qaydada bir təhlükəsizlik və müdafiə sisteminə ehtiyacı var. Ən azından Avropa Birliyi rəhbərliyi xeyli müddətdir ki, bu yöndə fikirlər səsləndirir və müzakirələr aparırlar".



**"Belə olan vəziyyətdə əlbəttə, Avropa İttifaqı özünün təhlükəsizlik sistemi haqqında düşünməli idi"**

*N.Miri qeyd edib ki, bu məsələ Əfqanıstanı üzü üstə buraxan və 20 ildir Amerika Birləşmiş Ştatları və müttəfiqləri olduğu NATO ilə əməkdaşlıq edən yüz minlərlə əfqanlını ölüm təhlükəsi ilə üz-üzə buraxıb:* "Amerika Əfqanıstanı tərk etdikdən sonra müdafiə və təhlükəsizlik məsələləri, əlbəttə Avropa Birliyi kimi ciddi bir məkanda, siyasi məkanda müzakirə predmeti olması gözlənilirdi. Çünki bu nəyi göstərir? Bu onu göstərir ki, artıq Amerika Birləşmiş Ştatlarına həm Tramp dönəmində, həm də Əfqanıstan hadisəsindən sonra etimad getdikcə itməkdədir. Çünki artıq ABŞ öz müttəfiqlərini və yaxud da yeni münasibətlər sistemi qurduğu ölkələri çox rahatlıqla özünün geosiyasi maraqlarına qurban verə bilir. Ona görə də artıq ABŞ-a qarşı etimad məsələsi bütün dünyada, xüsusilə də ABŞ-ın müttəfiqləri arasında müzakirə predmetinə çevrilib. Bu da bir çox müttəfiq ölkələrin üzünü ABŞ-dan fərqli məkanlara çevirməyə gətirib çıxarıb. Ona görə də bir çox ölkələr təhlükəsizlik sistemini artıq ABŞ-la bərabər, həm də alternativ ölkələrlə, hətta qardaş Türkiyə ilə birgə təhlükəsizlik sistemini qurmağı düşünür. Ona görə də Borrelin dedikləri yeni bir şey deyil. Ancaq bunun nə qədər asanlıqla və sürətlə həyata keçiriləcəyinə böyük şübhələrim var. Çünki bu məsələ hələlik müzakirə predmetidir. Ayrıca bəzi Şərq, Avropa ölkələri - Ruminiya, Polşa, Bolqarıstan, eyni zamanda Baltikyanı ölkələr var ki, bu ölkələrin əsas müdafiə sistemləri NATO ilə bağlı olsa da, əsas müdafiə təhlükəsizlik sistemi bilavasitə ABŞ-la əlaqəlidir. Və bu ölkələrin əksəriyyətində Amerika Birləşmiş Ştatlarının kiçik, yaxud böyük anlamda hərbi bazaları da mövcuddur. Ona görə də bu ölkələrin bu məsələyə birmənalı yanaşacağını bəri başdan demək çox çətindir".

**Politoloqun sözlərinə görə, Avropa Birliyində bir çox məsələlər güzəştli qaydada qəbul olunur:** "Yəni hər hansı bir ölkə strateji qərarlara veto qoyursa, bu məsələnin qəbul olunma ehtimalı çox az olur. Ona görə də bu cür qərarların yaxın müddətdə və çox sürətlə icra olunacağı bir az problemli görünür. Ancaq hər bir halda bu məsələ gündəlikdə mövcuddur və Avropa rəhbərliyi bu məsələni gündəliyə gətirirsə, demək ki, bu, Avropa Birliyinin idarəetmə strukturlarında yenidən müzakirə predmetinə çevriləcək. Əgər qərar qəbul olunarsa, gələcək perspektivdə bunun üçün ciddi büdcə də ayrılacaq, çünki bunun böyük büdcəyə ehtiyacı var. Ancaq bunun üçün mütləq mənada ABŞ-la yeni münasibətlər sistemini qurmaq lazımdır. Çünki bu günə qədər Avropa Birliyinin bütün təhlükəsizlik məsələləri və sistemi məhz ABŞ-dan asılı olub. Ona görə də Avropa Birliyi istənilən strateji qərarı verməmişdən öncə Amerika Birləşmiş Ştatlarının qərarına və davranışına baxır. Artıq yeni müdafiə sistemindən danışan Avropa Birliyi rəhbərliyi demək ki, artıq ABŞ-ın birmənalı olaraq iradəsindən asılı olmaq istəmir. Düşünürəm ki, bu da mərkəzdən qaçma məsələlərini stimullaşdıracaq".

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi**



# Gənclərə böyük fürsət tanındı

## Media könüllüləri ciddi və ilkin təcrübəyə malik kadr bazasına çevrilə bilər

Medianın İnkişafı Agentliyi (MEDİA) "Media könüllüləri" proqramına başlayıb. Agentlikdən verilən məlumata görə, proqramın məqsədi media sahəsinin inkişafı istiqamətində həyata keçirilən layihələr çərçivəsində gənclərin potensialından daha səmərəli istifadə etməkdir. Həmçinin, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaqdır.

Onların təcrübi biliklərini artırmaq, yaradıcı-innovativ potensialını stimullaşdırmaq və ölkədə könüllülük hərəkatını inkişaf etdirməkdir. Proqram müddətində könüllülərin nəzəri və təcrübi biliklər qazanması üçün MEDİA və müxtəlif media subyektlərində təşkil ediləcək təcrübə proqramları, təlimlər və layihələrdə iştirakı nəzərdə tutulur.

”Media könüllüləri” proqramı medianın inkişafının gənclər tərəfindən təşəbbüs edilən müxtəlif layihələrlə dəstəklənməsini, gənclərin bu sahədə maarifləndirilməsini təmin edəcək. Media könüllüsü kimi fəaliyyət göstərmək istəyən gənclər üçün sahə üzrə təhsil, intizamlılıq, təşkilatçılıq, kollektivdə işləmək bacarığı, operativlik, kompüter bacarığı, təşəbbüskarlıq kimi tələblər müəyyən olunub. Proqram 2 ay müddətində davam edəcək. Könüllülük fəaliyyətini uğurla başa çatdırmış və öz öhdəliklərini yerinə yetirmiş könüllülər proqramın sonunda MEDİA tərəfindən sertifikatla təltif olunacaqlar. Müraciət üçün son qeydiyyat tarixi 5 sentyabrdır. Qeyd edək ki, Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilən ”Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramı”nda qarşıya qoyulmuş vəzifələrdən irəli gələrək dövlət orqanlarında gənclərin potensialından daha səmərəli istifadə etmək, gənclərin fəal iştirakına şərait yaratmaq, onlara peşə vərdişlərini aşılamaq və onların praktik biliklərini artırmaq, yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək məqsədilə Medianın İnkişafı Agentliyində könüllülərin cəlb olunması ilə bağlı müvafiq işlər görülür.

Məlumat üçün bildirək ki, ”Media könüllüləri” adlı layihələr bundan öncə də həyata keçirilib. Ötən ilin iyul ayında Milli Mətbuatın yaranmasının 145 illiyi ilə bag?lı Parlament Jurnalistlər Birliyi ”Media könüllüləri -145” layihəsini icra edib. Simvolik olaraq 145 nəfər könüllü tələbə seçilib. ”Media Könüllüləri” layihəsinin is?tirakc?ılarının xu?susi fəallıg?ı ilə fərqlənənlər jurnalistika u?zrə xaricdə təhsil və təcru?bə imkanı əldə ediblər.

**“Media könüllüləri” proqramı ilə bağlı fikirlərini ”Şərq”lə bölüşən ”Moderator.az”ın redaktoru, ”veteran.gov.az” saytının baş redaktoru Seymur Əliyev deyib ki, Medianın İnkişafı Agentliyinin hazırladığı ”Media könüllüləri” proqramı həm sözügedən proqrama cəlb edilən gənclərin özünün inkişafı, həm də həmin gənclərin enerjisindən, novatorluq keyfiyyətlərindən istifadə edərək medianın özünün yaradıcılıq imkanlarının genişləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.** Redaktor bildirib ki, ölkədəki ümumi könüllülük hərəkatına təkan verən ”Media könüllüləri” proqramı hər şeydən öncə maarifçi və yaradıcı bir proqram olmaqla, gənclərin mediaya marağının artırılmasına xidmət edəcək: ”Cəmiyyətdə maarifçilik ideyalarının daha geniş yayılması, gənclərin özlərini, yazı və müşahidə qabiliyyətlərini inkişaf etdirməsi, peşəkar media əməkdaşları ilə ünsiyyət fonunda özlərini təkmilləşdirmələri və s. baxımından mühüm əhəmiyyətə malikdir. Bildiyiniz kimi, media cəmiyyətin bütün sahələrini diqqət mərkəzində saxlayan, vətəndaşlara informasiya verməklə yanaşı, həm də onları maarifləndirən, cəmiyyətdəki eybəcərlikləri qamçılayan, topluma müsbət, sağlam və faydalı ideyalar aşılayan bir vasitə kimi olduqca dinamik bir sahədir. ”Media könüllüləri”nin məhz belə bir sahədə fəaliyyət göstərməsi onların dünyagörüşlərinin əhəmiyyətli dərəcədə zənginləşməsinə, cəmiyyətdə gedən proseslərdən xəbərdar olmasına, bu prosesləri müqayisəli şəkildə təhlil etməsinə şərait yaradacaq”.

### Seymur Əliyev: “Bəlli bir müddətdən sonra bu günün media könüllülərinin sabahın jurnalisti kimi fəaliyyətinə şahid olacağıq”

**S.Əliyevin fikrincə, media könüllülərinin fəaliyyəti mövcud mətbuatın gələcəyi baxımından da olduqca faydalıdır:** ”Çünki media ilə yaxından əməkdaşlıq, bu sahədə könüllü fəaliyyət həmin könüllüləri yaxın gələcəkdə media üçün ciddi və ilkin təcrübəyə malik kadr bazasına çevirə bilər. Nəzərə almaq lazımdır ki, həmin könüllülər MEDİA və digər media subyektlərində təşkil ediləcək təcrübə proqramlarında, təlim və seminarlarda iştirak edəcəklər. Bu isə o deməkdir ki, jurnalistlərin təkmilləşməsi üçün atılan hər bir addımdan könüllülərin də faydalanması mümkün olacaq. Yəni həm jurnalisltər, həm də media könüllüləri bu məsələdə bərabər imkanlara sahib olacaq ki, bu da MEDİA agentliyi tərəfindən gənclərə yaradılan böyük fürsətdir. Hesab edirəm ki, biz bəlli bir müddətdən sonra bu günün media könüllülərinin sabahın jurnalisti kimi fəaliyyətinə şahid olacağıq”.

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# “Ad məsələsində yekdil fikrə gəlməliyik"

## Aqil Ələsgər: “Bu adam jurnalist deyil, “dilənçi”, “saxtakar”, “reket”, “dələduz”dur”

Maksa taxmayan vətəndaşları şantaj edən "jurnalist" saxlanılıb. Müəyyən edilib ki, Bərdə rayonunda yaşayan Fəxri Əliyev Bərdə və Ağdam rayonlarında yerləşən iaşə obyektlərinə daxil olaraq özünü televiziya əməkdaşı kimi təqdim edərək şantaj yolu ilə pul tələb edib.

F.Əliyev Bərdə rayonunda daxil olduğu aptekdə özünü səlahiyyətli şəxs kimi təqdim edib, maskadan istifadə edilmədiyini səbəb göstərərək, 1400 manat məbləğində pul tələb edib. Bundan başqa F.Əliyev Ağdam rayon ərazisində yerləşən marketlərdən birinə daxil olub və obyekt daxilində tibbi maskadan istifadə edilmədiyinə dair videogörüntüləri silmək üçün 50 manat məbləğində pul tələb etdiyi də müəyyən edilib.

Müəyyən edilmiş faktlarla bağlı şikayətçilərin ərizələri alınıb. F.Əliyev Ağdam Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən saxlanılıb. Onun digər analoji əməllərinin olub-olmaması istiqamətində tədbirlər davam etdirilir.





**Hadisə barədə ”Şərq”ə danışan ”YeniÇağ” Media Qrupun rəhbəri Aqil Ələsgərin qənaətincə, cəmiyyətimizdə nə qədər ki, naqislik, rüşvətxorluq və korrupsioner məmurlar olacaq, onlara adekvat olaraq belə ”parazitlərin” də sayı azalmayacaq:**

”Bu, bir aksiomadır. Məsələ burasındadır ki, belə şəxslərə reket jurnalistlər deyilir. ”Reket” sözü ilə ”jurnalist” sözünü bir araya gətirmək əslində media işçisi üçün ən böyük zərbədir, belə şəxslərə jurnalist adını vermək olmaz. Bütün sahələrdə yararlı və yaramaz insanlar var. Ancaq sözügedən hadisədə reket jurnalist ifadəsini işlətməyin özü qüsurludur və jurnalistikamıza ziyandır. Bu baxımdan ad məsələsində yekdil fikrə gəlməliyik. Belə şəxslərə ”dilənçi”, ”saxtakar”, ”reket”, ”dələduz” deyə bilərik, amma ”jurnalist” demək düzgün deyil. Qarşımızda duran əsas məsələ jurnalist adını təmiz saxlamaqdır. Hazırda ölkəmizdə kifayət qədər təmiz, halal maaşını alan, hətta ala bilməyən o qədər jurnalistlər var ki, bu cür hadisələr zamanı onların da üzərinə kölgə düşür. İnsanların işinə gələndə jurnalist ən yaxşı şəxsdir, haqq-ədaləti müdafiə edir, ancaq kimisə tənqid edəndə reket sözünü jurnalistlə yan-yana qoyub həmin şəxsi qaralayırlar”.

**Yeganə Bayramova**




# Azərbaycan təhlükəsiz dəhliz rolunu oynayacaq

## İran Orta Asiyaya və Rusiyaya asan çıxış yolu əldə etmək niyyətindədir

*Azərbaycan İranın MDB ölkələri bazarlarına girişi üçün dəhliz ola bilər. Bunu İranın Azərbaycandakı ticarət attaşesi Mehdi Babayi İranın Zəncan vilayəti Ticarət, Sənaye, Mədənlər və Kənd Təsərrüfatı Palatasının onlayn şəkildə keçirilən iclasında deyib.*

M.Babayinin sözlərinə görə, Azərbaycan bölgədə tranzit mərkəzinə çevrilmək istiqamətində müəyyən investisiyalar yatırıb və məhsul tranzitində regional mərkəzə çevrilmək niyyətindədir. O əlavə edib ki, üçüncü ölkələrə məhsul ixrac etmək məqsədilə Azərbaycanda yaradılan imkanlardan istifadə etmək lazımdır.

**Azərbaycan hökumətinin bir neçə il bundan öncə şimal-cənub dəhlizinin yaradılması və bu dəhlizin fəaliyyəti ilə bağlı qərarlar aldığını deyən iqtisadçı-ekspert Natiq Cəfərli ”Şərq”ə açıqlamasında vurğulayıb ki, hətta İran tərəfinə 500 milyon dollara yaxın kredit xəttinin açılması ilə bağlı ümumi bir razılaşma da əldə olunmuşdu.** Bu razılaşmaya əsasən, Rəşt-Astara dəmir yolu və Bəndər-Abbas dəniz limanlarına qədər olan dəmir yolları yenilənməli idi: ”Lakin hazırda bu işlərin gecikməsini müşahidə edirik. Bunun da əsas səbəbi İrana qarşı olan sanksiyaların yenidən qüvvəyə minməsi oldu. Nəticə etibarilə də bu layihələrin həyata keçirilməsində zaman uzandı. İndi İranla ABŞ, həm də Avropa Birliyi arasında yeni danışıqlar mərhələsi gedir. Danışıqlar intensiv şəkildə Cenevrədə və Vyanada davam edir. Bu danışıqlar mərhələsinin yaxşı yekunlaşacağı barədə də ehtimallar çox yüksəkdir. Bu danışıqlar yekunlaşandan sonra cənub-şimal koridorunun açılması prosesi daha da sürətlənə bilər”.

**İqtisadçının sözlərinə görə, Azərbaycanla İran arasında ticarət dövriyyəsinin artması mümkündür:** ”İndi ticarət dövriyyəsi 500 milyon dollar civarındadır. Bunu bir neçə dəfə artırmaq mümkündür. İran məhsullarını Azərbaycan tranzit xətti ilə həm Orta Asiya respublikalarına, həm Rusiyaya, həm Belarusa, həm Ukraynaya, həm də Baltik dənizinə qədər ixrac etmək imkanları var. Həmçinin, əks istiqamətdə də bu ixracatı həyata keçirmək imkanlarına sahibdir. Təbii ki, bu xətlərin açılması, kommunikasiya xətlərinin güclənməsi Azərbaycan iqtisadiyyatında həm tranzit gəlirlərinin artmasına, həm də ticarət dövriyyəsinin yüksəlməsinə səbəb ola bilər”.

**Aynurə Pənahqızı**

# İstənilən hədəfi məhv edə bilərik



## Azərbaycan ən müasir silahlarla Naxçıvan sərhədlərini möhkəmləndirir

**Bu ilin avqust ayında Naxçıvanda 5 dəfə intensiv hərbi təlimlər keçirilib. Məsələn, avqustun 5-də Əlahiddə Ümumqoşun Orduda xüsusi təyinatlı bölmələrin təlimi gerçəkləşib. Bundan başqa, avqustun 10-da tank və mexanikləşdirilmiş birləşmələrin aktiv məşğələləri baş tutub.**

Eyni zamanda avqustun 14-də hava hücumundan müdafiə bölmələri təlimlərə cəlb olunub. Bununla yanaşı, avqustun 20-də minaatan bölmələrin təlim atışları reallaşıb. Avqustun 31-də isə xüsusi təyinatlı bölmələrin növbəti təlimi gerçəkləşib. Birinci və beşinci təlim sırf antiterror təlimləridir, digərləri isə dolayı da olsa antiterror hazırlıqları ilə əlaqəlidir.

**Adıçəkilən təlimlərin ard-arda keçirilməsinin zəruriliyini ”Şərq”ə dəyərləndirən siyasi şərhçi, jurnalist Aqşin Kərimov bildirib ki, Naxçıvan böyük strateji önəmə malik regiondur, Naxçıvandakı Əlahiddə Ümumqoşun Orduda döyüş hazırlığı yüksək səviyyədədir.** Onun sözlərinə görə, bura müasir silahlar da yerləşdirilib: ”Güman ki, ən müasir silahların Naxçıvana göndərilməsi prosesi indi də davam edir. Naxçıvandan İrəvana 70-80 kilometr məsafə var. Azərbaycan Vətən müharibəsində qələbə qazandıqdan sonra Naxçıvanın təhlükəsizliyi məsələsi yeni geosiyasi reallığın tələblərinə uyğunlaşdırılır. Buna görə də, Naxçıvanda Ermənistanla sərhədin möhkəmləndirilməsi prosesi gedir.

Naxçıvan amili Zəngəzur dəhlizi üçün də açardır, buna görə də Azərbaycan Ermənistanın gələcəkdə mümkün təxribatlarının qarşısının alınması üçün sərhədləri möhkəmləndirir, strateji yüksəkliklərdə döyüş növbətçiliyini gücləndirir.

Azərbaycan Laçın və Kəlbəcərdə demarkasiya işləri aparır, paralel olaraq Naxçıvana hərbi yatırımı gücləndirir - səbəb sadədir: Azərbaycan Kəlbəcər və Laçınla yanaşı Naxçıvandan da Ermənistanın içərilərinə ”girir”, yəni daha dəqiq desək, vizual nəzarətini gücləndirir ki, perspektivdə hər hansı təxribat baş tutmasın”.

**Təlimlərin keçirilməsinə gəlincə, A.Kərimov qeyd edib ki, Naxçıvan Türkiyə üçün də böyük strateji nöqtədir, bu baxımdan hərbi məşqlərdə Türkiyədən olan hərbçilər də iştirak edir:** ”Naxçıvanda hərbi təlimlərin intensivliyinin səbəbi Ermənistanın burnunun dibində ona mesaj vermək məqsədi daşıyır. Ermənistanın paytaxtı İrəvana coğrafi yaxınlıq isə erməniləri isterikaya salır, psixoloji gərginlik yaradır.

Naxçıvandakı müasir silahların içərisində isə uzaqmənzilli raketlər də var.

Prezident İlham Əliyev 2018-ci ilin mayın 16-da Naxçıvan Muxtar Respublikasına səfəri zamanı Əlahiddə Ümumqoşun Ordunun ”N” saylı hərbi hissəsi ilə tanışlığı zamanı demişdi ki, Naxçıvanda yerləşdirilmiş müasir silahlar, o cümlədən uzaqmənzilli raketlər düşmənin istənilən hərbi hədəfini məhv edə bilər”.

**Yeganə Bayramova**



# "Lavrovun Gürcüstana çağırışı normaldır"

## Samir Hümbətov: “Kremldə hesab edirlər ki, torpaqların qaytarılması Gürcüstanın tamamilə itirilməsi, Qərbin regiona nüfuz etməsi ilə nəticələnə bilər”

**Rusiyanın Xarici işlər naziri Sergey Lavrov Rusiya-Gürcüstan münasibətlərinin bərpası ilə bağlı şərtləri açıqlayıb. XİN rəhbəri bildirib ki, əgər Gürcüstan Rusiya ilə qonşu kimi normal yaşamaq istəyirsə, Moskva münasibətləri bərpa etməyə hazırdır.**

O qeyd edib ki, əgər Gürcüstan həqiqətən də Qərbin himayəsini qorumaq üçün Rusiya kartını oynamasa, eyni zamanda, qonşu kimi normal yaşamaq istəsə, Rusiya münasibətləri hər an bərpa etməyə hazırdır.

**Lavrovun açıqlamasını ”Şərq”ə dəyərləndirən ”Atlas” Araşdırmalar Mərkəzinin eksperti Samir Hümbətov bildirib ki, Rusiya XİN başçısının məhz indiki vaxtda belə açıqlama verməsi təbii və normaldır. Analitik deyib ki, həm Gürcüstana, həm də Ukraynaya görə, Qərb ölkələrinin Rusiyaya təzyiqləri artmaqdadır:** ”Bununla paralel olaraq çoxsaylı sanksiyalar da tətbiq edilir. Kreml fərqindədir ki, Gürcüstan və Ukrayna yavaş-yavaş Qərbə inteqrasiyanı sürətləndirir. Digər tərəfdən Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan ”altılıq” platformasını təklif etdi və Gürcüstanı orada görmək istədiyini vurğuladı. ”Altılıq” platforması əslində Rusiya üçün daha çox əhəmiyyətlidir. Əgər Tiflis bunu qəbul edərsə, Moskvanın əl-qolu açılacaq. O baxımdan Gürcüstan Rusiya ilə birlikdə hər hansı platformada yer almaq fikrində deyil. Çünki Gürcüstanın ərazisi hələ də işğal altındadır. Faktiki olaraq Abxaziya və Osetiya Rusiya tərəfindən zəbt olunub. Əgər bu ərazilər Gürcüstanın suverenliyinə qayıdarsa, yalnız ondan sonra birgə əməkdaşlıq və normal qonşuluq münasibətləri baş tuta bilər. İndiki halda isə bu, mümkün görünmür. Çünki Rusiyanın Gürcüstana güzəştə getmək niyyəti yoxdur”.

*Siyasi şərhçiyə görə, Kremldə hesab edirlər ki, torpaqların qaytarılması Gürcüstanın tamamilə itirilməsi, Qərbin regiona nüfuz etməsi ilə nəticələnə bilər:* ”Bu da Cənubi Qafqazın əldən çıxmasına səbəb olar. Ziddiyyətlər kifayət qədər dərindir. Hətta qarşıdakı dönəmlərdə münaqişənin aktiv fazaya keçmə ehtimalı da var. Lavrovun açıqlamasının arxasında isə Qərbin Rusiyaya təzyiqləri və sanksiyaların çoxalması dayanır. Baş diplomat vəziyyəti bir qədər yumşaltmağa, Rusiyanı sığortalamağa çalışır”.

**İsmayıl Qocayev**

# "Şuşanın futbol komandası mütləq olmalıdır"

## İlqar Tağıyev: “Adı “Qala” da ola bilər, “Xarıbülbül” də, “Cıdır düzü” də...”




"İnformasiyalı Cəmiyyət Uğrunda" İctimai Birliyinin sədri, tanınmış hüquqşünas Mehman Muradlı şəxsi "facebook" səhifəsində maraqlı təkliflə çıxış edib. O, Şuşada "Qala" adlı futbol klubunun yaradılması təşəbbüsünü irəli sürüb.

Təklifə münasibət bildirən "525-ci qəzet"in şöbə müdiri, idman yazarı İlqar Tağıyev "Şərq"ə açıqlamasında bildirib ki, əslində bu ideya çoxdan var.

O, bu təklifin yaxşı yox, əla olduğunu bildirib: ”Təkcə Şuşada deyil, işğaldan azad olunmuş digər rayonlarda da futbol komandasının təsis edilməsi vacibdir. Düzü, bunları yaratmaqda bir qədər gecikirik. Çünki artıq bir ilə yaxındır ki, torpaqlarımızı işğaldan azad etmişik. Amma geridə qalan müddətdə bu yöndə hansısa iş görülməyib. İstər sovet, istərsə də müstəqillik dövründə azad etdiyimiz rayonların çoxunun komandası olub. Hətta müstəqillik qazandıqdan sonra birinci divizionda mübarizə aparıblar. Kəlbəcər və Laçın rayonları dağ rayonları olduğuna görə bu ərazilər futbola bir qədər yaddır. Amma Laçın və Kəlbəcərin adına komanda təsis olunması da çox yaxşı olardı. Ən əsas da Şuşanın”.

**İ.Tağıyev vurğulayıb ki, işğaldan azad olunmuş ərazilərimizin futbol komandalarının yaradılması üçün ölkəmizdə geniş imkanlar var:** ”Məlum məsələdir ki, Ağdamın komandası var. Artıq neçə ildir ki, ”Qarabağ” adlı komanda meydanlardadır. Azərbaycanı beynəlxalq arenada layiqincə təmsil edir. Yeri gəlmişkən, maraqlı bir faktı nəzərinizə çatdırım. 44 günlük Vətən müharibəsi qələbəmiz ilə başa çatdıqdan sonra ötən ilin təxminən noyabr, dekabr aylarında AFFA öz rəsmi saytında belə bir məlumat yaymışdı ki, işğaldan azad olunmuş rayonlarımızın komandaları yaradılacaq. Və növbəti mövsümdən, yəni 2021/22-ci illər mövsümündən etibarən Region Liqasında mübarizə aparacaq. Amma çox təəssüf ki, bu, elə söz olaraq qaldı, heç bir




**“Qarabağ” futbolumuzu abırını saxlayır”**

əməli iş görülmədi. Düzdür, ötən mövsüm Region Liqası pandemiyaya görə keçirilmir. Bu il keçirilib, keçirilməyəcəyi isə sual altındadır. Amma ən azından komandaların yaranması baxımından nəsə bir iş görmək olardı. AFFA 1-ci Divizionu təşkil etməyə çətinlik çəkir. Divizionda hazırkı çempionatda 13 komanda var. Bu 13 komandanın 8-i Premyer Liqada çıxış edən komandaların əvəzedicləridir. Yəni işğaldan azad olunmuş rayonlarımızın komandalarını yaratmaqla, onları diviziona buraxmaq olardı. Həm çempionata maraq artardı, həm kütləvilik olardı. Neçə-neçə futbolçu futbolsuz, məşqçi işsiz qalmazdı. Amma təəssüf ki, bunu saytda məlumat kimi verdilər. Vəssalam”.

**İlqar Tağıyevin sözlərinə görə, təəssüf ki, bunun yaxın gələcəkdə reallaşacağına ümid çox azdır:**

”Doğrudur, arqument gətirilə bilər ki, AFFA həmin məlumatı verəndə komandaların Region Liqasında çıxışını nəzərdə tutmuşdu, ancaq o keçirilmir. Amma ən azından bayaq qeyd elədiyim kimi, diviziona buraxmaq olardı. Digər tərəfdən yenə arqumet gətirilə bilər ki, həmin rayonlarda futbol infrastrukturu, stadion yoxdur. Bəs onda komandalar yenə Bakıda, Sumqayıtda oynayacaq? Ancaq bunun da çıxış yolu var. Məsələn, Şuşanın komandasını yaratmaq olardı. Ad indi fərq eləmir ”Qala”, ”Xaribülbül”, ”Cıdır düzü” də və s. kimi çox ad qoymaq olar. Komanda heç də Bakıda məskunlaşmazdı. Niyə Bakıda, Sumqayıtda məskunlaşmalıdır ki? Məsələn, Ağdamın Quzanlı qəsəbəsi var. Hansı ki, orada İdman Olimpiya Kompleksi fəaliyyət göstərir. Dövlət o boyda kompleks tikib, stadionu da bomboş qalıb. Məsələn, Füzulini götürək. Onun komandasını yaratmaqla komandanı Bakıda, Sumqayıtda deyil, Horadizdə yerləşdirmək olardı. Horadiz Füzulinin qəsəbəsidir və orda da İdman Olimpiya Kompleksi var. Komandanı orda yerləşdirmək, yarışları orda keçirtmək də olardı. Və yaxud Suqovuşanın komandasını yaratmaq olardı. Hazırda Tərtər İdman Olimpiya Kompleksi bomboşdur. Suqovuşanın özündə stadion və yaxud nəsə bir idman qurğusu tikilənə kimi komandanı orda da yerləşdirmək olardı. Yəni variantlar çoxdur. Çox şey etmək olardı. Ancaq təəssüf ki, futbol Azərbaycanda ən axırıncı planda olan sahələrdən biridir və itirə-itirə gedirik. Bunu ötən gün Lüksemburqla oyununda da gördük. Ki, Azərbaycanda futbol nə gündədir. Yalnız ”Qarabağ”ı çıxmaq şərtilə. ”Qarabağ” futbolumuzun abırını saxlayır. ”Qarabağ” da olmasa, futbolumuz çox bərbad gündədir və bataqlığın dibindədir. Ümid edirəm ki, gələcəkdə bu istiqamətdə müsbətə doğru addımlar atılacaq”.

**Aynurə**

# Banklar ucuz kreditlər təklif etməlidir

## Kredit faizləri ilə dividend faizləri arasındakı yüksək fərq hələ qalmaqdadır



**“Mərkəzi Bankın elan etdiyi statistikaya əsasən, bankların kredit faizləri ilə depozitlər üzrə dividend faizləri arasındakı yüksək fərq hələ qalmaqdadır. Belə ki, Mərkəzi Bankın hesablamalarına görə, banklar xarici valyutada depozitlərə orta hesabla 1.76 faiz dividend ödədiyi halda dollar kreditlərini orta hesabla 5.18 faizlə təklif edirlər. Rəsmi statistika göstərir ki, xarici valyutada kreditlər ilə depozit dividendləri arasında 3 dəfə fərq var”.**

*Bunu Milli Məclisin deputatı, iqtisadçı Vüqar Bayramov ”Şərq”ə açıqlamasında deyib. Deputat diqqətə çatdırıb ki, banklar cəlb etdikləri depozitləri 3 dəfə daha baha şəkildə kredit formasında təklif edirlər:* ”Manatla depozitlərə orta hesabla 8.62 faiz ödənilir. Manatla kreditlər üzrə orta faiz isə 13.75 faizdir. Fiziki şəxslər üzrə orta kredit faizi isə 16 faizdən çoxdur. Rəsmi rəqəmlərin müqayisəsi göstərir ki, manatla orta kredit faizləri ilə depozitlər üzrə dividend faizləri arasında da fərq az deyil. Mərkəzi Bankın elan etdiyi bu göstəricilər orta rəqəmlərdir. Sistem əhəmiyyətli bankların əksəriyyətində manat üzrə depozit faizləri 6 faizdir, xarici valyutada əmanətlərə isə, demək olar, dividend ödənilmir”.

V.Bayramov əlavə edib ki, kredit faizləri ilə depozit faizləri arasında mütənasibliyin formalaşması və xüsusən də ucuz kreditlərin təklif olunmasına nail olunması vacibdir: ”Aydındır ki, kredit faizlərinin optimallaşdırılması üçün inzibati deyil, daha çox təşviqedici metodlardan istifadə edilməsi məqsədəuyğundur. Mərkəzi Bank tərəfindən bank sektorunda rəqabətin gücləndirilməsi ilə bağlı sistemli və daha ünvanlı tədbirlərin genişləndirilməsinə ehtiyac var”.

**Aynurə**

# Gün gəldi, hamının ürəyincə olacaq

## Türkiyə və Azərbaycan arasında tibb sahəsi üzrə ortaq universitet yaradılacaq



**Türkiyə və Azərbaycan arasında tibb sahəsi üzrə ortaq universitet yaradılması təklif edilib. Azərbaycanın Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə heyətinin sədri Ramin Bayramlı səhiyyə sistemlərinin uyğunlaşdırılmaq məqsədilə yol xəritəsi hazırlamaq üçün Türkiyədə bir sıra görüşlər keçirib.**

TƏBİB sədri Türkiyəyə səfəri çərçivəsində Ankara Universitetinin rektoru Necdet Ünüvar və Sağlamlıq Elmləri Universitetinin rektoru Cevdet Erdöllə də görüşüb. Görüş zamanı tibb sahəsində kadrların hazırlanması üçün əməkdaşlığın inkişaf etdirilməsi imkanları müzakirə edilib. Ankara Universitetinin və Sağlamlıq Elmləri Universitetinin filiallarının Azərbaycanda açılmasının təklif edildiyi görüşdə, ölkə rəhbərlərinin uyğun görəcəyi halda, qardaşlıq simvolu olaraq tibb sahəsi üzrə Azərbaycan-Türkiyə Universitetinin qurulmasının mümkünlüyünə dair fikirlər səsləndirilib.

**Türkiyə ilə Azərbaycan arasında qarşılıqlı fayda verən və hər zaman səmimi işə xidmət edən təşəbbüsləri dəstəklədiyini deyən tibb elmləri doktoru, professor Adil Qeybulla ”Şərq”ə açıqlamasında diqqətə çatdırıb ki, Türkiyə və Azərbaycan arasında tibb sahəsi üzrə ortaq universitet yaradılması çox mühüm addımdır.** A.Qeybulla hesab edir ki, Azərbaycanın ən sıx əlaqələri istər tibb sahəsində, istərsə də digər sahələrdə Türkiyə ilə birgə olmalıdır: ”Biz Türkiyə ilə bir millət bir dövlət kimi çalışmalıyıq. Ona görə də, mən Türkiyə ilə bütün əlaqələrə həmişə dəstək vermişəm. Ancaq, təəssüf ki, Türkiyə ilə bizim əlaqələrimiz gözləntidən xeyli-xeyli zəifdir. Hesab edirəm ki, bu cür ortaq universitetin yaradılmasında mühüm fayda var. Bu, ən başlıcası gələcəkdə Azərbaycanda tibb sahəsinin inkişafına mühüm töhfə verə bilər”.

**Həkim-nevroloq Pərviz Axundov ”Şərq”ə açıqlamasında vurğulayıb ki, bu təklif uzun müddətdir ki, bir çox həkimin ürəyindən keçir.** O qeyd edib ki, bu təklif xüsusən Türkiyədə tibb təhsilini görən, orda oxuyan həkimlərin ürəyincədir: ”Fikrimcə, bu cür universitetlər yaradılarsa, Türkiyədə təhsil alan həkimlərin bir çoxu orda öz qazandıqları bilikləri tələbələrə çatdıra bilər. Ümumiyyətlə, bu, həkimlərimizin tibb sahəsində yeni biliklər əldə etməsində mühüm rol oynaya bilər. Bir həkim olaraq, bu təklifi dəstəkləyirəm və çox müsbət qiymətləndirirəm”.

**Aynurə Pənahqızı**

# "Xəstəliyi ağır keçirənlər ancaq yaşlılar deyil"

## Ayaz Hüseynov: "Vaksinasiya ilə paralel məsuliyyətli olmaq lazımdır"



**Pandemiya dövründən çıxana qədər sosial məsafəni saxlamaq, maskadan düzgün istifadə etmək və gigiyenaya ciddi riayət etmək mütləqdir**

Koronavirusla mübarizədən danışanda onu qeyd etməliyik ki, insanların qaydalara əməl etmələri, özlərini virusdan qorumaları da yoluxma sayı kimi dalğavaridir. Çünki vətəndaşlar Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyən etdiyi qaydalara gah əməl edirlər, gah da səhlənkar yanaşırlar.

Məsələn, maskadan istifadə ilə bağlı rəsmi qərar qəbul olunub, cərimələr müəyyənləşən kimi insanlarımız arasında maskadan istifadə edənlərin sayı çoxaldı. Metroda, küçədə, ictimai nəqliyyat vasitələrində və digər qapalı məkanlarda maskasız insana rast gəlmək demək olar ki, mümkün deyildi. Lakin bir müddətdən sonra insanlar müxtəlif bəhanələrlə maskadan istifadəyə yenidən laqeyd yanaşmağa başladılar.

Karantin qaydalarında bəzi yumşalmaların olması, xüsusilə də toy və şənliklərə icazə verilməsi və yeni "ştamm"ın yayılması yoluxma sayında artıma səbəb oldu. Toy və şənliklərin keçirilməsi insanların sıx toplaşmasına gətirib çıxarır ki, bu da insanların koronavirusdan qorunma tədbirlərindən ən əsas olanı, sosial məsafənin pozulmasına və maskadan istifadə olunmamasına gətirib çıxarır. İnsanlar həmin məclislərdə yaxınları ilə öpüşür-görüşür və bir-birlərinə xəstəliyi yoluxdururlar.

**"Hemofiliyalı Xəstələr" İctimai Birliyinin sədri Ayaz Hüseynov "Şərq"ə açıqlamasında bildirib ki, ölkəmizdə gündəlik COVID-19 virusuna yoluxma sayının təxminən 4 minə qədər yüksəlməsi ciddi narahatlıq doğurur.** Əsas səbəbin virusun mutasiyaya uğraması və "Delta" ştammının yayılması olduğunu vurğulayan birlik sədri söyləyib ki, bu ştammın digər ştammlara nisbətən yoluxuculuq qabiliyyəti daha çoxdur və istər yoluxanlar, istərsə də xəstəliyi ağır keçirənlər sadəcə yaşlı nəsil nümayəndələri deyil: "Virus artıq yaşa baxmır. Hər kəs virusa yoluxa bilər. Yoluxma sayının artmasının digər səbəblərindən biri də insanların qoyulan qaydalara və tələblərə məsuliyyətsiz yanaşmasıdır. Onlar qapalı ictimai obyektlərə daxil olarkən sosial məsafənin saxlanılmasına, maskanın düzgün istifadə olunmasına riayət etmirlər".

**A.Hüseynov qeyd edib ki, regionlarda maskadan istifadə edən insanlara rast gəlmək demək olar mümkün deyil. Belə olan halda təbii ki, yoluxma sayı artacaq:** "Vaksin olunan şəxs virusa yoluxsa belə, xəstəliyin ağırlaşma riski aşağı olur. Son günlərdə verilən statistikaya əsasən, yoluxanlar arasında ağırlaşma ilə reanimasiyaya düşənlərin 96 faizini vaksin olunmayanlar təşkil edir. Süni tənəffüs aparatına qoşulanların statistikasına baxdıqda burada da 97 faiz vaksin olunmayanlardır. Virus səbəbindən vəfat edənlərin 99 faizini vaksin olunmayanlar təşkil edir. Bu rəqəmlər real olaraq COVID-19 əleyhinə vaksinin vacibliyini və effektivliyini bir daha təsdiq edir.

3-cü doza vaksinasiyanın olunması mövzusuna gəldikdə isə orqanizmdə ilk iki doz vaksinasiyadan ən az 6 ay keçdikdən sonra virusa qarşı antitellərin titri düşərsə, onda mütəxəssislərin məsləhəti ilə əlbəttə ki, 3-cü doza vaksinin olunması vacibdir.

Məqsəd ölkəmizdə vaksinasiya ilə virusa qarşı kütləvi immunitetin yaranmasını təmin etmək və bununla da virusun pandemiya halından çıxmasına nail olmaqdır.

Hazırda Azərbaycanda vaksinasiya prosesinin yüksək səviyyədə təşkil edilməsi insanlar üçün əvəzedilməz bir şansdır. Vətəndaşlarımız vaksinasiya ilə həm özlərini, həm yaxınlarını, həm də ətraflarında olan insanları qoruyurlar. Amma vaksinasiya ilə paralel məsuliyyətli olmağımız mütləqdir. Pandemiya dövründən çıxana qədər sosial məsafəni saxlamaq, maskadan düzgün istifadə etmək və gigiyenaya ciddi riayət etmək mütləqdir.

Yenidən sərt qapanmaya getmək istəmiriksə, qaydalara əməl etməli və vaksin olunmalıyıq".

**Yeganə Bayramova**

# İndi də "mu" ştammı qorxuya saldı

## Həkim-infeksionist Vüqar Cavadzadə: "İstənilən halda bu ştamm "Delta" qədər yoluxucu və təhlükəli deyil"



**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) rəsmi nümayəndəsi Tarik Yazarkeviç koronavirusla bağlı yeni açıqlama verib. O bildirib ki, koronavirusun yeni "mu" ştammının orqanizmin immun reaksiyasına potensial təsirini öyrənmək lazımdır.**

"Ştamm mutasiyalara malik olduğundan maraq doğuran variant kimi müəyyən edilib. Bu mutasiyaların insan orqanizminin immun reaksiyasına potensial təsirini öyrənmək lazımdır. Virusların təkamülü ilə bağlı ÜST-nin İşçi qrupuna təqdim edilmiş məlumatlar göstərir ki, xəstəlik və ya vaksinləmə nəticəsində formalaşmış immunitet bu ştamma qarşı o qədər də təsirli olmaya bilər. Bu məlumatı təsdiq etmək üçün əlavə araşdırmalar aparılmalıdır"- o, bildirib.

Onun sözlərinə görə, koronavirusun yeni "mu" ştamı ilk dəfə 2021-ci ilin yanvar ayında Kolumbiyada aşkar edilib. GISAID-in (Qrip barədə məlumatların mübadiləsi üzrə Qlobal təşəbbüs qrupu) avqustun 29-na olan məlumatına görə, indiyədək "mu" ştammına dünyanın 39 ölkəsində 4 500-dən çox yoluxma halı qeydə alınıb.

"Dünyada "mu" ştammının yayılması halları azalmaqdadır. Hazırda yoluxmaların yalnız 0,1 faizi bu varianta aiddir. Son həftələrdə Kolumbiya və Ekvadorda yeni ştamma yoluxma halları artıb. ÜST bu variantın təsirini araşdırmaqla yanaşı, onun epidemioloji təkamülünü də diqqətlə izləyir", - təşkilatın nümayəndəsi fikrini tamamlayıb.

**Həkim-infeksionist Vüqar Cavadzadə yeni versiya barədə "Şərq"ə danışarkən virusun daim mutasiyaya uğradığını dedi:** "Bu, virusların bioloji xüsusiyyətidir. Bəlkə də, bundan sonra onlarla, yüzlərlə yeni versiya meydana çıxacaq. Onların böyük əksəriyyətinin insan orqanizmi üçün təhlükəsi yoxdur. Ümumiyyətlə, mikroorqanizm mutasiya edərkən çox zaman xəstəlik törətmə qabiliyyəti zəifləyir. Nadir hallarda bunun əksi müşahidə olunur".

**V.Cavadzadə, həmçinin hazırda 39 ölkədə yeni versiyaya rast gəlindiyini söylədi:** "Kolumbiyada yoluxmaların təxminən 40 faizində "mu" ştammına rast gəlinib. Yoluxanlar arasında gənclər də var. Amma ölüm sayında artım yoxdur. Vaksinin "mu"ya qarşı nə qədər effektli olduğunu indidən demək olmaz. Bunun üçün zamana, elmi araşdırmalara ehtiyac var. Lakin istənilən halda "mu"nun "Delta" qədər yoluxucu və təhlükəli olduğunu düşünmürəm".

**Kənan**

**Tanınmış ədəbi-tənqidçi Əsəd Cahangir də Şuşada keçirilən Vaqif Poeziya Günlərində iştirak edib. O da Şuşanı görən hər kəs kimi ürəyidolu, bol təəssüratlarla qayıdıb. Əsəd bəylə əlaqə saxlayıb, gördüklərini, duyğularını bizimlə bölüşməsini istədik.**



# "Şuşada olmaq nağıl idi"

## Əsəd Cahangir: "Şəhəri qarış-qarış gəzdim, hər yerində olmağa çalışdım"

**O, "Şərq"ə Şuşada keçən iki günü nağıla bənzətdiyini söyləyib:** "Cəmi 10 ay öncə Şuşada olmaq bir yuxu kimi görünürdü. Amma Ali Baş Komandan cənab İlham Əliyevin uzaqgörən, bacarıqlı və müdrik siyasəti, xalqımızın, ordumuzun rəşadəti ilə bu nağılı gerçəkləşdirmək, Şuşaya getmək nəsib oldu. Həm özümün, həm də bütün ziyalıların, millətimizin adından Cənab prezidentə təşəkkür edirəm. Onu da deyim ki, Şuşa ərazi olaraq elə də böyük şəhər deyil. Lakin orada bir çox tarixi abidə var. Ərazisi Şuşadan 10 dəfə böyük şəhərlərdən qat-qat dərin tarixi mənaya malikdir. Orada olduğumuz müddətdə mümkün qədər vaxtdan istifadə etməyə, şəhərin hər yerində olmağa çalışdıq. Şuşa dağlıq relyefdə yerləşir. Küçələr gah yuxarı, gah da aşağı doğru gedir. Bakıdan fərqlidir, həmçinin taksi və maşın da yoxdur. Ona görə elə də asan deyildi. Yenə də Şuşanı qarış-qarış gəzməyə nail olduq. Mənim söylədiklərimi anlamaq üçün o anları yaşamaq lazımdır. Erməni vandalizmi Şuşadan da yan keçməyib, otuz il ərzində şəhər xarabalığa çevrilib. Şuşa azad olunduqdan sonra burada təmir-bərpa işlərinə başlanıldı. Artıq tarixi mədəni küçələr, abidələr bərpa olunub. Yaxın bir il ərzində şəhərin yenidənqurma, təmir işləri bitəcək. Şuşa yalnız Azərbaycanın deyil, dünyanın mədəniyyət mərkəzlərindən birinə çevriləcək. Vaqif Poeziya Günlərinin açılışında Prezident Şuşanın Azərbaycan tarixində rolu, Vaqifin ədəbiyyatımızdakı yeri, məqbərənin tarixi onun, yenidən bərpası məsələləri ilə bağlı geniş çıxış etdi. Bunun yalnız mədəni deyil, həm də dövlətçilik hadisəsi olduğunu, mühüm beynəlxalq siyasi əhəmiyyət daşıdığını söylədi. Biz istər 1982-ci ildə, istərsə də bu gün Vaqif məqbərəsini bərpa etməklə bütün dünyaya mesaj göndərdik. Dedik ki, Molla Pənah Vaqif bizim nəhəng şairimizdir, müasir Azərbaycan poeziyasının banisi, görkəmli dövlət xadimidir. Onun məqbərəsi bir daha göstərir ki, Şuşa, Qarabağ Azərbaycandır. Ermənilərin nə Şuşaya, nə də Qarabağa aidiyyəti var. Onlar Vaqif böyüklükdə şair yetişdirə bilməyiblər. İkinci bir tərəfdən Şuşanın küçələri ilə gəzib, tarixi abidələrinə baxdım. Dedim ki, ermənilər Şuşanı öz şəhərləri hesab edirdilərsə, niyə 30 il müddətində orada təmir-tikinti işləri aparmayıblar? Çünki bilirdilər ki, Şuşa onların deyil, gec-tez öz sahibləri gələcək. Bu gün biz qayıtdıq. Qayıdışın başında M.P.Vaqifin ruhu dururdu, biz də onun müqəddəs məqbərəsinin önündə toplaşaraq bütöv Azərbaycanı təmsil etdik. Sonsuz qürur duyurduq".

**Samirə Ərəblinski**

# "Səhvimdir, qələtimdir"

## Nadir Ayanla görüntülərinə görə üzr istədi




**Ötən gün müğənnilər Nadir Qafarzadə və Ayan Babakişiyevanın səmimi görüntüləri gündəmə bomba kimi düşüb.**

N.Qafarzadənin həmkarını öpməsi və yaxınlıq etməsi sosial şəbəkə istifadəçiləri tərəfindən tənqid olunub.

**"Şərq" xəbər verir ki, müğənni sözügedən görüntülərə videoaçıqlama ilə aydınlıq gətirib:** "Ad günü məclisinə getdim, bir az içki qəbul etdim. Özümü elə aparmaq mənə yaraşmırdı. Hər zaman çalışmışam ki, insanlara nümunə olum. Düşünürəm ki, məni anlayarsınız. Bir də belə hallar olmayacaq. Utanıram, xəcalət çəkirəm. Hər kəsin həyatında səhv olur. Bu da mənim səhvim idi. Böyük günah kimi boynuma yazmayın. Allah bağışlayandır, siz də məni əfv edərsiniz. Həmişəki kimi mənə qarşı müsbət fikirdə olun. Oldu, keçdi. Çox üzr istəyirəm, mənim kiməsə zərərim dəyməyib, qaydaları pozmamışam. Amma səhv etmişəm, bunu anlayıram. Bildirirəm ki, bu son olacaq. Nəinki mənə, bu hərəkət heç kimə yaraşmır. Səhvimdir, qələtimdir. Xalqdan üzr istəmək məcburiyyətindəyəm. Bunu heç yerə yozmayın. Mənə basqı etməyiblər, sadəcə içimdən gəldi".

**Samirə**

# "Çiçəklənən Dubay" göydələni...

### Binaya yalnız 2 girişdən daxil olmaq mümkündür



**"Petra Architects" memarlıq studiyasının mütəxəssislərinin göydələn layihəsi "Çiçəklənən Dubay" adlanır.**

Azərtac xarici saytlara istinadla xəbər verir ki, çiçək açan qönçəyə bənzər göydələn spiral relsli yuxarı və aşağıya doğru işləyən iki liftlə, habelə şəhərin müşahidəsi üçün nəzərdə tutulan adi bir pilləkənlə təchiz ediləcək. Maraqlıdır ki, binaya yalnız 2 girişdən - uşaq kitabxanası və yaxınlıqdakı daxili parkdan daxil olmaq mümkündür.

*Göydələndə ofis işçiləri üçün 135 metr hündürlükdə yerləşən kafe də fəaliyyət göstərəcək.*

# Yaponiyanın ən yaşlı monarxı olacaq

### Fəxri İmperator 32 min 31 gün bundan əvvəl dünyaya gəlib



**Yaponiyanın Fəxri İmperatoru Akihito "Gündoğar ölkə"nin ən yaşlı monarxı olacaq.**

Azərtac Yaponiya Saray Dəftərxanasına istinadla xəbər verir ki, hazırda istefada olan 87 yaşlı Fəxri İmperator 32 min 31 gün bundan əvvəl dünyaya gəlib. Onun atası sabiq İmperator Şyova (Hirohito) dünyasını düz həmin yaşda olarkən dəyişib. Rəsmi mənbələrə görə, XVII əsrdə yaşamış 108-ci İmperator Qomizuno ilə 1985-ci il iyulun 12-də ömrünün uzunluğuna görə müqayisə edilən İmperator Şyova bu münasibətlə heç bir təntənəli mərasimin keçirilməməsini xahiş etmişdi. İmperator Saray Dəftərxanasının məlumatına görə, Fəxri İmperator son vaxtlar koronavirusun yeni növlərinin yaranmasından və bunun nəticəsində Yaponiyada çox sayda insanın həyatını itirməsindən narahatlığını ifadə edib.

*Dəftərxana nümayəndələrinin bildirdiyinə görə, Fəxri İmperatorun uzunömürlülüyü ilə əlaqədar heç bir təntənəli mərasim keçirilməyəcək.*




# 40 gün nə tez keçdi?

### Xatun Səməd Səmədovun məzarını ziyarət edib

**Müğənni Xatun Əliyeva ötən aylarda koronavirusdan dünyasını dəyişən Səməd Səmədovun məzarını ziyarət edib.**

"Şərq" xəbər verir ki, o, mərhum xalq artistinin məzarı başından foto paylaşaraq bunları yazıb: "Gözəl insan, 40 gün nə tez keçdi? Allah sizə qəniqəni rəhmət eləsin, yeriniz cənnət olsun".

**Samirə**

# Uşaq pulu verilməlidir

### Mehriban Xanlarova: "Həyat bahalı villaların pəncərəsindən göründüyü kimi deyil"



**Əməkdar artist Mehriban Xanlarova son günlər müzakirə olunan uşaq pulu məsələsinə münasibət bildirib.**

"Şərq" xəbər verir ki, o, instaqram hesabında bunları yazıb:

"44 günlük Vətən müharibəsində uşaq pulu almadan, minbir əziyyətlə böyüyən igidlərimiz qəhrəmancasına döyüşərək öz canlarını qurban verdilər. Elə bu səbəbdən uşaq pulları bərpa edilməlidir ki, valideynlər əziyyət çəkməsinlər. Həyat bahalı villaların pəncərəsindən göründüyü kimi deyil".

**Samirə**

# Havanın temperaturu 5-8 dərəcə aşağı enəcək



**Milli Hidrometeorologiya Xidməti hava şəraitinin dəyişəcəyi ilə bağlı məlumat yayıb.**

Xidmətdən Sputnik Azərbaycan-a bildirilib ki, sentyabrın 2-si axşamdan Bakıda və Abşeron yarımadasında şimal-qərb küləyinin 15-20 m/s, arabir 23 m/s, 3-ü axşamdan arabir 25-30 m/s-dək güclənəcəyi, 4-ü səhər isə zəifləyəcəyi gözlənilir.

Sentyabrın 3-ü axşam, 4-ü gecə bəzi yerlərdə yağış yağacağı gözlənilir. Yarımadanın bəzi yerlərində arabir intensivləşəcəyi ehtimalı var.

Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 5-8° aşağı enəcək.

Rayonlarda sentyabrın 2-si axşamdan 4-ü səhərədək bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Əsasən dağlıq və dağətəyi rayonlarda leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var.

Qərb küləyi 15-20 m/s, arabir 23-28 m/s, bəzi Kür vadisi rayonlarda arabir 30-33 m/s-dək güclənəcək.

Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 5-8° aşağı enəcək.

Çaylarda sululuğun artacağı, bəzi dağ çaylarından qısamüddətli sel keçəcəyi ehtimalı var.

# Naomi yaxalandı

### Baydenin nəvəsinin gizlicə şəklini çəkdilər




**ABŞ Prezidenti Co Baydenin nəvəsi Naominin hovuzda bikini fotoları yayılıb.**

Milli.Az xəbər verir ki, paparassilər onun İtaliyadakı Komo gölündəki lüks oteldə istirahət edərkən şəklini çəkiblər. Şəkillər Daily Mail tərəfindən dərc olunub.

O, gecəsi min dollardan başlayan beşulduzlu otelin hovuzunda vaxt keçirir.

Avqust ayında Baydenin nəvəsi sevgilisi ilə Tarek Şakarçı və Tulya Efenin toyunda qonaq olub.


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**



Baş redaktor: **Akif Aşırlı**

Baş redaktorun ı müavini: **Yusif Nəzərli**

Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı

**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535 **www.sherg.az** e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı. **Telefon:** 447-32-41 538-44-50, internet 538-44-15, **İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611** SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111 Kod 200112 M/H AZ37NABZ01350100000000001944 VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1631



# Vəsiyyəti gerçəkləşdi

## İtaliyalı tədqiqatçı Ağrı dağının göründüyü məzarlıqda dəfn olundu

**Ağrı dağında 35 il təhqiqat aparmış italiyalı tədqiqatçı Ancelo Palego koronavirusla əlaqəli ürək çatışmazlığından dünyasını dəyişib. Tədqiqatçının oğlu atasının Ağrı dağının ətrafında dəfn edilmək istəyini dilə gətirib.**

Və atasının istəyini yerinə yetirmək üçün hərəkətə keçib. "Milliyyet.com" da yer alan xəbərdə bildirilir ki, italyan tədqiqatçı 1986-cı ildən etibarən Ağrı dağı çevrəsində araşdırma apararaq Nuhun gəmisini axtarırmış. Ağrının Doğubayazid bölgəsindəki bir oteldə qalan tədqiqatçının səhhətində problem yaranıb və o, Ərzurum Şəhər Xəstəxanasına aparılıb. Xəstəxanada aparılan müayinələr zamanı tədqiqqatçının COVİD-19-a yaxalandığı məlum olub. Müalicə almasına rəğmən italyan alimi virusdan xilas etmək mümkün olmayıb. Alim koronavirusun təsiri ilə ürək çatışmazlığından vəfat edib. Alimin oğlu Stefano Palego İtaliya konsulluğu vasitəsilə Ağrı dağının göründüyü yerdə məzarlıq üçün ayrılmış ərazidə məzar yeri alıb. Alimin cənazəsi Ərzuruma gətirilib və burada Ağrı dağının göründüyü məzarlıqda dəfn edilib.

**Məlahət**

# Dünyanın ən böyük çiçəyi açdı

## Bu gülün kökləri və yarpaqları yoxdur





**İndoneziyanın Bengkulu şəhərindəki bir evin bağçasında ölkədə nadir olan və milli çiçək sayılan "Rafflesia arnoldii" çiçək açıb.**

"Şərq" "Ntv.com"a istinadən bildirir ki, "Cəsəd çiçəyi" olaraq bilinən "Rafflesia arnoldii", adını çürük ət ətrindən alır.

Çiçək bitki olmasına baxmayaraq, fotosintez etmir, kökləri və yarpaqları yoxdur. Cəsəd çiçəyi ölçüsünə görə diametri 1 metrə çataraq dünyanın ən böyük çiçəyi sayılır. Qoxusu ilə özünü tozlandırmaq üçün milçək kimi böcəkləri cəlb edən bu çiçək Cənub-Şərqi Asiyaya xas bitki olaraq diqqəti çəkir. Çiçək 1993 -cü ildən etibarən İndoneziyada milli və nadir çiçək kimi rəsmi olaraq tanınır.

**Yeganə**

# Alimlər ən dözümlü canlını araşdırdı

## Su ayıları addımlarını böcəklər kimi atır



**Elm adamları dünyanın ən dözümlü canlıları olaraq bilinən su ayısının necə gəzdiyini araşdırıb.**

"Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, su ayıları indiyə qədər kosmosda dözümlülük testlərindən keçirilib. Ancaq yeni bir araşdırmada elm adamları bu canlıların dözümlülüyünə deyil, əsasən gündəlik həyatlarına diqqət yetiriblər. Videogörüntülərdə su ayısının 8 qısa ayaqları üzərində gəzintisi əks olunub.

ABŞ-dakı Rokfellər Universitetinin professoru Jasmin Nirodi bildirib ki, araşdırma zamanı su ayılarının addımlarını böcəklər kimi atdıqları bəlli olub.

**Yeganə**




# Virusu dərhal öldürür

## Yeni hazırlanan dərman korona xəstələrinə ümid olacaq




**Türkiyəli həkim, professor İsmail Balık koronavirusa qarşı ABŞ-da hazırlanan Faz-3 dərmanının araşdırmalarına başladıqlarını söyləyib.**

"Şərq" Türkiyə mətbuatına istinadən xəbər verir ki, professor bu dərmanın xüsusilə yüksək risk qrupunda olan xəstələrə veriləcəyini deyib. Həmçinin bildirib ki, bu dərman koronavirusdan ölüm riskini azaltma xüsusiyyətinə malikdir: "Sentyabrın 1-dən etibarən ABŞ-da koronavirusa qarşı hazırlanmış Faz-3 adlı dərmanın araşdırmalarına başladıq. Qeyd edim ki, bu birbaşa antiviral bir dərmandır. Bir müddət öncə Faz-1 və Faz-2-nin tədqiqatları ABŞ-da aparılıb. Onların çox təsirli olduğu göründüyü üçün Faz-3-ün tədqiqatlarını aparmaq qərarına gəldik. Bu dərman "Covid-19" əleyhinə ən yaxşı inkişaf etdirilmiş dərmanlardan biri olaraq görülür. Faz-3 tədqiqatda olduğu üçün hazırda bu dərmanın bazar adı verilmir. Onun araşdırması aparıldıqdan sonra ona lisenziya veriləcək və adı bəlli olacaq. Virusu birbaşa öldürən bu dərman həyati orqanlarda ağır infeksiyaların qarşısını almaq xüsusiyyətinə malikdir. Təəssüf ki, bu günə qədər koronavirusu birbaşa öldürən heç bir dərman tapılmayıb. Hazırda koronavirusa qarşı iki dərman istifadə olunur, lakin onlar da digər xəstəliklər üçün hazırlanıb. Ancaq bu dərman "Covid-19"-un törədicisi olan Sars-Cov-2 üçün hazırlanıb. Və birbaşa olaraq koronavirusu hədəf alan və öldürən bir dərmandır. Buna görə də digərlərinə nisbətən effektivliyi yüksək səviyyədədir. Bu dərmanı ilkin mərhələdə, xüsusən də heç vaxt peyvənd edilməmiş və xəstələnmə riski yüksək olan insanlara istifadə edəcəyik. Ancaq maraqlı bir şeylə qarşılaşdıq. Şəhərdən etibarən bura gələrək testləri pozitiv olan bir çox xəstəyə təklif etsək də, onlar könüllü olmaqdan çəkiniblər. Açığı, bu da bizi çox təəccübləndirdi".

**Aynurə Pənahqızı**

# Bilik günü müəllimə "göbək rəqsi" oynadı

## Məktəbin bütün kollektivi sorğu-sual olunacaq



**Rusiyada 1 sentyabr - Bilik Günü qalmaqalla yadda qalıb. İlk dərs gününü təntənəli şəkildə qeyd edən orta məktəblərdən birində müəllimə şagirdlərin qarşısına rəqqasə geyimində çıxıb və "göbək rəqsi" oynayıb.**

"Milliyet.com" xəbər verir ki, bu mənzərə qarşısında şagirdlərin, necə deyərlər, "ağzı açıq qalıb", valideynlərsə çılğına dönüb. Məlumdur ki, ilk dərs gününü təntənəli şəkildə qeyd etmək sovetlərdən qalma bir adətdir. Əslinə baxsaq, hər yerdə ilk dərs günü - Bilik günü xüsusi qeyd edilir. Məktəb rəhbərliyi təbrik nitqi söyləyir, şagirdlər şeir deyir, musiqi səslənir, mahnı oxuyan da olur. Amma göbək rəqsi, etiraf edək ki, ilk dəfədir baş verir. Həm də Rusiyada. Rusiya rəsmiləri belə bir halın xüsusən, məktəbə ilk dəfə ayaq basan 6-7 yaşlı uşaqlar önündə baş verməsini nə tədrisə, nə də təlim-tərbiyəyə uyğun gəlmədiyi fikrindədir: "Uşaqlar qarşısında belə bir performans qəbuledilməzdir. Məktəbin bütün kollektivi sorğu-sual olunacaq". "Göbək rəqsi"nə qapı açan orta məktəb barəsində isə artıq araşdırma başladılıb. Məktəbin ciddi şəkildə təftiş ediləcəyi bildirilib. Valideynlər əsəbi halda bu tamaşanı qınayıb. Bir valideyn "biz təhsilə buna görəmi pul ödəyirik?!", digəri isə "bu, striptiz klubunun tamaşasına bənzəyirdi", deyərək olayı qınayıblar. Moskva şəhər Analar Şurasının sədri Tatyana Butskaya da baş vermiş hadisəni bu şəkildə qınayıb: "Uşaqlar heç bir şey anlamadı. Böyüklər, həqiqətən utanmalıdır".

**Məlahət**

# Ebru Şahin lavanda tarlasında...

## Aktrisa görüntülərini profilində yerləşdirib



**Türkiyəli məşhur aktrisa Ebru Şahinin instaqram paylaşımı böyük marağa səbəb olub.**

"Şərq" xəbər verir ki, sənətçi lavanda tarlasında yeni fotolarını izləyiciləri ilə bölüşüb. O, bir neçə ay əvvəl dostları ilə birgə getdiyi lavanda ferma evindən görüntülərini profilində yerləşdirərək Xəlil Cibrandan sitat gətirib: "İndi anlayıram ki, öz boşluqlarını gurultu ilə doldurmağa ehtiyac duyanların rahatlığı üçün mahnılarımızı dayandırmaq lazım deyilmiş".

**Samirə**